QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 088 (5808) **16 may** 2019-cu il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# Prezident İlham Əliyev XXV Azərbaycan Beynəlxalq Qida Sənayesi və XIII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı sərgiləri ilə tanış olub




Səh 2

6

“Dayanıqlı İnkişaf Məqsədlərinin icrasında özəl şirkətlərin rolu” mövzusunda tədbir keçirilib



6

Dmitri Savelyev: Qonaqpərvərlik Azərbaycanın milli sərvətidir



9

“ASAN Viza” vasitəsi ilə hava limanlarında 376 mindən çox turistə viza verilib



# "Azərbaycan ilə Belarus arasında ikitərəfli münasibətlər uğurla və dinamik şəkildə inkişaf edir"

## *Prezident İlham Əliyev Belarusun Baş nazirinin müavininin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də Belarus Respublikası Baş nazirinin müavini İqor Lyaşenkonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan ilə Belarus arasında ikitərəfli münasibətlərin uğurla və dinamik şəkildə inkişaf etdiyini bildirərək, Belarus Respublikası Baş nazirinin müavini İqor Lyaşenkonun başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin əlaqələrimizin perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi. Bakıda keçirilən XIII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisinə toxunan Prezident İlham Əliyev Belarusun bu tədbirdə fəal şəkildə iştirakından məmnunluğunu bildirdi. Dövlətimizin başçısı Belarusun kənd təsərrüfatı məhsullarının keyfiyyətinin Azərbaycanda razılıq doğurduğunu dedi və özünün Belarusa səfəri zamanı orada da Azərbaycan Ticarət Evinin açılmasını bu sahədə əməkdaşlığın yaxşı göstəricisi kimi dəyərləndirdi.

Xoş sözlərə görə minnətdarlığını bildirən Belarus Respublikası Baş nazirinin müavini İqor Lyaşenko Belarusun XIII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisində fəal iştirakının Prezident İlham Əliyevin ölkələrimiz arasında əməkdaşlığa göstərdiyi diqqətin nəticəsi olduğunu bildirdi və qeyd etdi ki, Azərbaycan və Belarus dövlətləri başçılarının əlaqələrimizin inkişafı ilə bağlı verdikləri tapşırıqlara əsasən birgə layihələr uğurla həyata keçirilir. İqor Lyaşenko ölkəmizə səfəri zamanı Azərbaycanda istehsal olunan və birgə istehsalı planlaşdırılan kənd təsərrüfatı texnikası və eləcə də digər nəqliyyat vasitələri nümunələri ilə tanış olduqlarını və bu sahədə işlərin uğurla həyata keçirildiyini diqqətə çatdırdı.

Görüşdə ölkələrimiz arasında kənd təsərrüfatı ilə yanaşı, maşınqayırma, avtomobil sənayesi sahələrində əlaqələrin perspektivləri müzakirə edildi, Azərbaycan məhsullarının, xüsusilə tütün və şərab ixracının önəmi qeyd olundu və bu sahədə əməkdaşlığımızın genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Çexiya parlamenti Deputatlar Palatasının sədri Azərbaycana rəsmi səfərə gəlib




Çex Respublikası parlamentinin Deputatlar Palatasının sədri Radek Vondraçekin rəhbərlik etdiyi nümayəndə heyəti mayın 15-də Azərbaycana rəsmi səfərə gəlib. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Beynəlxalq Aeroportunda Çexiya parlamenti Deputatlar Palatasının sədrini Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini Valeh Ələsgərov qarşılayıb.

Jurnalistlərə müsahibəsində Radek Vondraçek Azərbaycana səfərdən məmnunluğunu bildirib. O, ölkələrimiz arasında bir çox oxşarlıqların olduğunu deyib. Deputatlar Palatasının sədri Çexiya ilə Azərbaycan arasında əməkdaşlığın inkişaf səviyyəsini yüksək qiymətləndirdiklərini söyləyib. O, Azərbaycana iş adamlarından ibarət nümayəndə heyəti ilə gəldiyini qeyd edib. Səfər çərçivəsində bir çox sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı müzakirələrin aparılacağını diqqətə çatdıran Radek Vondraçek əlaqələrin daha da genişlənməsi üçün yaxşı potensialın olduğunu vurğulayıb.



# Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevi Ramazan ayı münasibətilə təbrik edib

Mayın 15-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib. Azərbaycan Prezidentinin Mətbuat Xidmətindən Trend-ə verilən məlumata görə, Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevi və Azərbaycan xalqını Ramazan ayı münasibətilə təbrik edib, dövlətimizin başçısına və xalqımıza firavanlıq arzularını çatdırıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib və öz növbəsində, Rəcəb Tayyib Ərdoğanı və Türkiyə xalqını bayram münasibətlə təbrik edib, Türkiyə Prezidentinə və xalqına ən xoş arzularını çatdırıb. Söhbət zamanı dövlət başçıları Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da bütün sahələrdə uğurla inkişaf edəcəyinə əmin olduqlarını bildiriblər.

# Mavritaniya qəzetlərində ümummilli lider Heydər Əliyev haqqında məqalə dərc olunub




Mavritaniya İslam Respublikasının "Əl-Ərəbi", "Vətən xəbərləri" və "Huriya Media" qəzetlərində Azərbaycanın Mərakeşdəki səfiri Oktay Qurbanovun "Ümummilli lider Heydər Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaq" adlı məqaləsi dərc edilib.

Məqalədə qeyd edilir ki, müasir müstəqil Azərbaycan dövlətinin banisi olan ümummilli lider Heydər Əliyevin xatirəsi bu gün də Azərbaycanın hər bir vətəndaşının qəlbində yaşayır və ölkənin müasir tarixində canlı xatirə kimi qalacaq. Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edilən məqalədə bildirilir ki, Azərbaycanın XX əsrdəki inkişafının əsası 1969-cu il iyulun 14-də qoyulub. Ümummilli Liderin Azərbaycana rəhbərliyinin birinci dövründə ölkə iqtisadi inkişafa yol açıb və qısa zamanda SSRİ tərkibində o zaman üçün müasir iqtisadiyyata malik respublikaya çevrilib. Ümummilli Lider Azərbaycan xalqının milli inkişaf konsepsiyasını irəli sürüb, cəmiyyəti bütün sahələr üzrə gələcək mənəvi və iqtisadi yüksəlişlərə ruhlandırıb. Bu mənada Ulu Öndərin 1969-cu ildə hakimiyyətə gəlişindən sonrakı dövr Azərbaycanı müstəqil dövlət quruculuğuna aparan yol olub.

Məqalələrdə vurğulanır ki, Azərbaycan xalqı ulu öndər Heydər Əliyevin dövlət quruculuğunda misilsiz xidmətlərini heç vaxt unutmayacaq. Ümummilli Lider Azərbaycanın ictimai-siyasi, mədəni həyatının müxtəlif sahələrində gənclərin roluna həmişə xüsusi diqqət yetirirdi.

Heydər Əliyevin həyata keçirdiyi uzaqgörən neft strategiyasından bəhs edilən məqalədə qeyd olunur ki, "Əsrin müqaviləsi" iri həcmdə xarici sərmayəni Azərbaycan iqtisadiyyatına cəlb edərək ölkənin iqtisadi dirçəlişində əvəzsiz rol oynayıb. Həmin neft strategiyasının mühüm tərkib hissəsi olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin çəkilişi ideyası və onun reallığa çevrilməsi məhz ulu öndər Heydər Əliyevə məxsusdur.

# Prezident İlham Əliyev XXV Azərbaycan Beynəlxalq Qida Sənayesi və XIII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı sərgiləri ilə tanış olub









Mayın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Ekspo Mərkəzində XXV Azərbaycan Beynəlxalq Qida Sənayesi - "WorldFood Azerbaijan" və XIII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı - "Caspian Agro" sərgiləri ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, kənd təsərrüfatı naziri İnam Kərimov və "Caspian Event Organisers" şirkətinin regional direktoru Edvard Straxan dövlətimizin başçısına sərgilərlə bağlı məlumat verdilər.

Bildirildi ki, dünyanın 32 ölkəsini təmsil edən 440 şirkəti, eləcə də 11 milli və regional qrupu bir araya gətirən builki sərginin ekspozisiya sahəsi ötən illə müqayisədə 20 faiz artıb. Artım iştirakçıların sayında da qeydə alınıb. "WorldFood Azerbaijan" və "Caspian Agro" sərgilərində Azərbaycanla yanaşı Litva, Rusiya, Sloveniya, Ukrayna, Xorvatiya və digər ölkələri təmsil edən şirkətlər də yer alır. Bu il İtaliya, Türkiyə və Şri-Lanka sərgidə milli stendlərlə çıxış edirlər. Ənənəvi olaraq, sərgidə Rusiyanın Başqırdıstan, Penza, Voronij, Vladimir, Kabarda-Balkar kimi regional qrupları da iştirak edir. Bu il sahəsi genişlənmiş Belarus Respublikasının milli stendinin ekspozisiyası iki zalda - ikinci və sərginin tarixində ilk dəfə açılmış üçüncü zalda təqdim olunur. Burada, eyni zamanda, qida sənayesi sahəsində fəaliyyət göstərən start-taplar, mikro və kiçik sahibkarlıq subyektləri də öz məhsul və xidmətlərini təqdim edirlər. Gürcüstan və Niderland Krallığı sərgidə milli qruplarla təmsil olunur.

Prezident İlham Əliyevə Aqrar Məşğulluğun Artırılması Layihəsi barədə məlumat verildi.

Dövlətimizin başçısı sərgidə "Azersun", "Grow Group Azərbaycan", CASE, "Grimme", "Agro Dairy", CLAAS, "John Deer", "Rostselmaş", "Cahan Tobacco", "Lindsay", "Geoflow", METAK, GİLAN, İMAGRO, "Agronaft", "Prior Leasing" şirkətlərinin, Gəncə avtomobil zavodunun, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin, Kənd Təsərrüfatı Nazirliyinin, Rusiya Federasiyasının Başqırdıstan Respublikasının, Belarusun, İtaliyanın, Türkiyənin, Niderlandın, Gürcüstanın stendləri ilə tanış oldu. Stendlərdə ən müasir kənd təsərrüfatı texnikası, əkin-biçin aqreqatları, kənd təsərrüfatı məhsulları təqdim olunur.

Sərgidə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi və Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi də fəal iştirak edir. Ümumilikdə isə sərgilər BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), AZPROMO, Azərbaycan Respublikası Sahibkarlar Təşkilatları Milli Konfederasiyası, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin dəstəyi ilə keçirilir. "Caspian Event Organisers" şirkəti və onun beynəlxalq agentlər şəbəkəsi sərgilərin təşkilatçısıdır.

Bu il "WorldFood Azerbaijan" sərgisi 25 illik yubileyini qeyd edir və bu sahənin regionda hərəkətverici qüvvəsinə çevrilib. Sərgi 25 illik uğurlu fəaliyyəti ərzində dünyanın 40-dan artıq ölkəsini təmsil edən 2137 şirkəti bir araya gətirib. Nəticədə bu şirkətlərin çoxu Azərbaycanda uğurlu biznes qurub.

Ənənəvi olaraq, sərgidə "Made in Azerbaijan" brendi altında geniş çeşiddə qida, o cümlədən ət və süd məhsulları, çay, bal, şirələr və milli istehsalçıların digər məhsulları təqdim olunur. Burada, eyni zamanda, suvarma sistemləri, istixanalar və heyvandarlıq təsərrüfatları üçün avadanlıqlar, yem və toxumlar, kənd təsərrüfatı texnikası, baytarlıq preparatları, laboratoriya qurğuları və digər avadanlıqlar nümayiş olunur.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə bağlı həyata keçirilən tədbirlər çərçivəsində digər sahələrlə yanaşı, kənd təsərrüfatının da bir çox istiqamətləri üzrə böyük işlər görülüb, dövlətimizin başçısı tərəfindən mühüm qərar və sərəncamlar, həmçinin konkret sahələr üzrə Dövlət proqramları qəbul olunub. Bütün bunlar bir daha göstərir ki, kənd təsərrüfatının inkişafı ölkəmizdə prioritet sahələrdən biri kimi müəyyənləşib. Bu sahələrə göstərilən dövlət dəstəyi nəticəsində kənd təsərrüfatı məhsullarının ixrac potensialının artırılmasına geniş imkanlar yaranıb. Aqrar sahəyə qoyulan investisiyaların həcmi də ildən-ilə artır.

Ölkəmizdə taxıl tədarükü istiqamətində də çox mühüm işlər görülüb. Ötən il 3,3 milyon ton taxıl tədarük olunub ki, bu da 2017-ci illə müqayisədə 13 faiz çoxdur. Bu il də artım gözlənilir. Belə ki, bu il ölkə üzrə 1 milyon 47 min 500 hektar sahədə yazlıq və payızlıq taxıl əkilib.

Həyata keçirilən bütün bu layihələr Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Kənd təsərrüfatının inkişafı, eyni zamanda, bu sahədə çalışanlara və fermerlərə göstərilən dövlət qayğısı ilə şərtlənir. Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq fermerlər müasir kənd təsərrüfatı texnikası ilə təchiz edilir, onlara subsidiyalar, yanacaq, gübrə güzəştli şərtlərlə verilir, fermerlər torpaq vergisindən başqa, bütün vergilərdən azad olunublar. Bütün bunlar kənd təsərrüfatının inkişafı üçün icra edilən tədbirlərin kompleks şəkildə davam etdirildiyini göstərir.

Kənd təsərrüfatı texnikasının ucuzlaşması isə bazarın liberallaşmasının, azad rəqabət mühitinin yaradılmasının nəticəsidir. Prezident İlham Əliyev tərəfindən aqrar texnologiyalar bazarında aparılan liberallaşma siyasəti şirkətlərin bu sahəyə marağını daha da artırıb. Dövlətimizin başçısı "WorldFood Azerbaijan" və "Caspian Agro" sərgilərinin işinə uğurlar arzuladı.

# Regionların inkişafı iqtisadiyyatın dayanıqlığını təmin edir

## *İlham Əliyev: "2004-cü ildən bu günə qədər Azərbaycan bölgələrinin inkişafı, hesab edirəm ki, tarixi nailiyyətdir"*



***Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə 2004-cü ildən uğurla həyata keçirilən regional inkişaf proqramları nəticəsində, ölkə iqtisadiyyatı 3 dəfədən çox artıb. Ötən 16 il ərzində yeni-yeni istehsal müəssisələri açılıb, 2 milyona yaxın iş yeri yaradılıb ki, onlardan 1,4 milyonu daimi iş yeridir. 2004-2017-ci illər ərzində iqtisadi islahatlar baxımından, Azərbaycan qədər sürətli inkişaf yolu ilə gedən ikinci ölkə olmayıb.***

Son 16 il ərzində ölkədə 3100-dən çox məktəb, 642 tibb müəssisəsi tikilib və ya təmir edilib, 12 min 300 kilometr yol inşa edilib, 443 körpü tikilib, 43 Olimpiya İdman Kompleksi istifadəyə verilib və digər lazımi sosial infrastruktur yaradılıb. Nəticədə, Azərbaycandakı işsizliyin göstəricisi dünyada ən aşağı səviyyəyə - cəmi 5 faizə enib. Halbuki 2003-cü ildə bu göstərici 49 faizə bərabər olub. Əgər 2004-cü ildə yoxsulluğun səviyyəsi 49 faizdən artıq idisə, hazırda, bu, cəmi 5,4 faizdir. Ötən 16 il ərzində, maaşlar beş dəfə, pensiyalar səkkiz dəfə artıb. Biznesin inkişafı üçün şəraitin yaradılması istiqamətində də ciddi addımlar atılıb, indiyə qədər sahibkarlara güzəştli şərtlərlə 2 milyard manatdan çox kreditlər verilib.

Bir sözlə, Prezident İlham Əliyevin rəhbərliyi ilə 2003-cü ildən etibarən uğurla həyata keçirilən regionların sosial-iqtisadi inkişafı dövlət proqramları ölkəmizin simasını tanınmaz dərəcədə dəyişib, qeyri-neft sektorunun ilbəil tərəqqisinə səbəb olub.

### Regional inkişaf strategiyasında kənd təsərrüfatının uğurlu nəticələri real rəqəmlərlə

Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrası sayəsində iqtisadiyyatın müxtəlif sahələri ilə bərabər, kənd təsərrüfatında da böyük uğurlar qazanılıb. Rəqəmlərə nəzər salaq: 2004-cü ildə ölkə üzrə 196 min ton ət tədarük edilmişdisə, keçən il bu rəqəm 326 min tona çatıb. Həmin dövrdə süd istehsalı 1 milyon 200 min, ötən il 2 milyon ton olub. Növbəti 5 il ərzində isə, həm ət, həm də süd istehsalını daha 15-20 faiz artırmaq nəzərdə tutulub. Digər misal: əgər 2004-cü ildə Azərbaycanda 44 min ton quş əti istehsal edilmişdisə, ötən il bu rəqəm 109 min ton olmuşdur. Tərəvəz istehsalı da bu dövrdə 0,5 milyon ton artaraq, 1 milyon 500 min tona çatmışdır. İstehsalın artımı, nəinki ölkəmizə kənd təsərrüfatı məhsullarının idxalını azaltmış, həmçinin, bizə ixrac imkanı yaratmışdır. Təkcə ötən il pomidor ixracından 177 milyon, xurmadan 114 milyon, pambıq və pambıq məhsullarından 108 milyon, fındıqdan 100 milyon, almadan 38 milyon dollar gəlir əldə edilmişdir.

Prezident İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfransda növbəti illərdə də aqrar sektorun inkişafına xüsusi önəm veriləcəyini bildirərək demişdir: "Kənd təsərrüfatı və sənaye istehsalı IV Proqramda xüsusi yer tutur. Əlbəttə, infrastruktur layihələri də diqqətdədir. Ancaq qeyd etdiyim kimi, onların böyük hissəsi başa çatıb, yaxud da ki, başa çatacaq. Ona görə iqtisadiyyatın real sektoru, kənd təsərrüfatı, sənaye potensialının gücləndirilməsi əsas məsələlərdən biridir... Biz kənd təsərrüfatında islahatları dərinləşdirməliyik. Kənd təsərrüfatı elmi əsaslarla inkişaf etməlidir. Müasir texnologiyalar və yanaşmalar tətbiq olunmalıdır. Biz ərzaq təhlükəsizliyi ilə bağlı bundan sonra da mütləq ciddi iş aparmalıyıq, bu, prioritet məsələdir. Biz kənd təsərrüfatı məhsullarının ixracını artırmalıyıq. Düzdür, son 15 il ərzində, kənd təsərrüfatı məhsullarının ixracı, təxminən 6 dəfə artıb. Ancaq potensial daha böyükdür və biz yeni bazarlara çıxmalıyıq".

Azərbaycan Prezidenti İlham Əliyev demişdir: "2004-cü ildən bu günə qədər Azərbaycan bölgələrinin inkişafı, hesab edirəm ki, tarixi nailiyyətdir. Heç vaxt Azərbaycan tarixində belə qısa müddət ərzində bu qədər işlər görülməmişdi".

Dövlət başçısı Dördüncü Proqramın qəbul edilməsinin önəmli hadisə olduğunu vurğulayaraq bildirmişdir ki, Dördüncü Proqram beş il ərzində icra ediləcək. Bu gün, hələ də görə bilmədiyimiz işləri, biz növbəti illər ərzində görəcəyik ki, ölkəmiz daha da inamla və uğurla inkişaf etsin. Dövlət başçısı, onu da vurğulayıb ki, Azərbaycanın uğurlu inkişaf modelinin



əsas qayəsi ondadır ki, ölkədə aparılan siyasət xalq tərəfindən dəstəklənir. Azərbaycan sabitlik və təhlükəsizlik məkanı olduğunu bildirən prezident qeyd edib ki, həyata keçirilən siyasət xalqın rifah halının yaxşılaşmasına hesablanıb.

**RƏFİQƏ KAMALQIZI**

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Moskvada iftar verilib







*Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Rusiya Müftilər Şurası tərəfindən Moskvadakı “Poklonnaya qora”da qurulmuş “Ramazan çadırı”nda “Azərbaycan Günü” təşkil edilib və iftar süfrəsi açılıb. AZƏRTAC xəbər verir ki, iftardan əvvəl Azərbaycan ruhanilərinin nümayəndəsi Müqəddəs “Qurani-Kərim”dən ayələr oxuyub, axşam duası verib. Tədbirdə ictimai xadimlər, Azərbaycan diasporunun nümayəndələri, müxtəlif millətlərdən olan 1000-ə yaxın müsəlman iştirak edib. Gecədə “İxlas” Fondunun nümayəndəsi Anas Məmmədov, “Əhli-beyt” dini təşkilatının sədri Nizami Baloğlanov çıxış edərək iftar süfrəsinin təşkilinə görə tədbir iştirakçıları adından Heydər Əliyev Fonduna və şəxsən Fondun vitse-prezidenti Leyla Əliyevaya təşəkkür ediblər. Onlar qeyd ediblər ki, “Poklonnaya qora”da “Ramazan çadırı” təşkil edilməsi artıq ənənəyə çevrilib və müsəlmanlar üçün bu mühüm tədbirdə Azərbaycan, Heydər Əliyev Fondu hər il iştirak edir.*





Tədbirin aparıcısı Rusiya Müftilər Şurası adından Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya, habelə “Ramazan çadırı-2019” tədbirinə təşkilati, yaradıcı və mənəvi töhfəyə görə Fondun nümayəndəsi Ayan Həsənovaya təşəkkürnamə təqdim edib.

Azərbaycanın Rusiyadakı səfirliyinin müşaviri Vüqar İmaməliyev bütün müsəlmanları Ramazan ayı münasibətilə təbrik edib, “Ramazan çadırı”nın təşkilinə görə Heydər Əliyev Fondunun Rusiya Federasiyasındakı nümayəndəliyinin rəhbəri Leyla Əliyevaya və Moskva Müsəlmanları Ruhani İdarəsinə təşəkkürünü bildirib.

“Zəkat” Fondunun rəhbəri Rifat İzmayılov xeyriyyəçiliyin vacibliyi barədə çıxış edərək deyib: “Biz, dindarlar xeyriyyəçilik trendi yaratmalıyıq. Ona görə ki, “xeyriyyəçilik” anlayışını başqalarına sirayət etməklə biz dünyanı daha da yaxşılaşdırır, onu daha xeyirxah edirik. Heydər Əliyev Fondu da, digər xeyriyyə fondları da buna çalışır, yaxşılıq etməyin asan olmasını şəxsi nümunələrində göstərirlər”.

Sonra müsəlmanlar iftarlarını açıb, Azərbaycan milli mətbəxinin yeməklərini və şirniyyatını dadıblar. İftarda Heydər Əliyev Fondunun 15 illiyinə həsr olunmuş videoçarx nümayiş etdirilib. Tədbirdə “Bakı” ansamblının və müğənni Samir Salamın ifasında Azərbaycan milli musiqisi səslənib. “İman” müsəlman məktəbinin şagirdləri Ramazan ayına həsr edilmiş səhnələşdirilmiş proqram təqdim ediblər.

Qeyd edək ki, Rusiya Müftilər Şurasının mühüm layihəsi olan “Ramazan çadırı” xalqlar arasında dostluğu möhkəmlətmək, Moskvada yaşayan və islam dininə etiqad bəsləyən çoxsaylı xalqların nümayəndələrini birləşdirmək naminə həyata keçirilir. Heydər Əliyev Fondunun Rusiya Federasiyasındakı nümayəndəliyi hər il bu layihədə fəal iştirak edir, dindarlar üçün iftar təşkil edir.



# “Dayanıqlı İnkişaf Məqsədlərinin icrasında özəl şirkətlərin rolu” mövzusunda tədbir keçirilib





Dünən Azərbaycan Respublikası Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası, İqtisadiyyat Nazirliyi və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Azərbaycandakı Nümayəndəliyinin birgə təşkilatçılığı ilə “Dayanıqlı İnkişaf Məqsədlərinin icrasında özəl şirkətlərin rolu” mövzusunda tədbir keçirilib. SİA xəbər verir ki, tədbirdə çıxış edən Baş nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov “Dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyi”ndən irəli gələn məqsədlər və Azərbaycanın DİM-lərə nail olunması istiqamətində gördüyü işlər barədə məlumat verib, ölkəmizdə Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradıldığını, Şura çərçivəsində aidiyyəti qurumların fəaliyyətinin əlaqələndirildiyini, Azərbaycanın inkişaf prioritetlərinin DİM-lərə uyğunlaşdırıldığını və ölkəmizdə həyata keçirilən dövlət proqramları və digər sənədlərdə DİM-lərin nəzərə alındığını qeyd edib. Baş nazirin müavini Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində dövlət-özəl əməkdaşlığının, bu sahədə maarifləndirmə tədbirlərinin əhəmiyyətini vurğulayıb, Azərbaycanın regionda ilk ölkə olaraq BMT-nin Yüksək Səviyyəli Siyasi Forumuna Azərbaycanın İkinci Könüllü Milli Hesabatının təqdim olunacağını bildirib.

Ə.Əhmədov qeyd edib ki, Özəl sektorla bağlı bizi narahat edən qeyri-leqal çalışmalarla bağlı çox əhəmiyyətli layihə həyata keçirilir. Onun sözlərinə görə, bu sahədə yaranmış Komissiyanın fəaliyyəti nəticəsində təxminən 2 ilə yaxın müddət ərzində Azərbaycanda 250 minə yaxın iş leqallaşıb: “Bunun nəticəsində Azərbaycanın Pensiya Fonduna ödənilən vəsait 200 milyon manata qədər artıb. Bu, Azərbaycanda pensiya sisteminin dayanıqlığına töhfədir”.

Baş nazirin müavini bildirib ki, birinci nail olmaq istədiyimiz budur ki, Azərbaycan öz üzərinə götürdüyü dayanıqlı inkişaf məqsədləri ilə bağlı öhdəlikləri vaxtında yüksək keyfiyyətlə yerinə yetirsin: “Onu da qeyd edim ki, Azərbaycanın bu layihənin həyata keçirilməsi ilə əlaqədar fəaliyyəti Birləşmiş Millətlər Təşkilatı tərəfindən layiqincə qiymətləndirilir. Azərbaycan iyul ayında ikinci milli könüllü hesabatını təqdim edəcək. Mənə deyilənə görə, Azərbaycan birinci ölkədir ki, iki hesabatını təqdim edir. Bu baxımdan Azərbaycanın bu layihədə iştirakı kifayət qədər ürəkaçandır. Eyni zamanda özəl sektorun da bu layihədə daha yaxından iştirakı bütövlükdə Azərbaycanın dayanıqlı inkişafının yerinə yetirilməsi ilə əlaqədar götürdüyü öhdəliyini layiqincə yerinə yetirilməyinə öz töhfəsini verəcək”.

Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının rezident numayəndəsinin səlahiyyətlərini icra edən Alessandro Frakassetti DİM-lərə çatmaq üçün görüləcək tədbirlər, bu sahədə Azərbaycanla əməkdaşlıq barədə fikirlərini bölüşüb. DİM-lərin həyata keçirilməsi istiqamətində ölkəmizin ciddi addımlar atdığını vurğulayan Alessandro Frakassetti bu sahədə Azərbaycan Hökuməti ilə əməkdaşlıqdan məmnunluğunu bildirib, Azərbaycanın 2017-ci ildə Könüllü Milli Hesabatını təqdim edən ilk ölkələrdən olduğunu diqqətə çatdırıb.

İqtisadiyyat Nazirliyinin Dayanıqlı inkişaf və sosial siyasət şöbəsinin müdiri Hüseyn Hüseynov “DİM-in qlobal məqsəd, hədəf və göstəricilərin milli prioritetlərə uyğunlaşdırılması və DİM-lərdə özəl sektorun rolu” mövzusunda təqdimatla çıxış edib. “Dayanıqlı İnkişaf Məqsədləri və özəl sektor” panel müzakirədə İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə ölkə iqtisadiyyatının inkişafı istiqamətində həyata keçirilən tədbirlər, aparılan iqtisadi islahatlar barədə məlumat verib.

Sahibkarlığın inkişafının, biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılmasının ölkəmizdə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının prioritet istiqamətlərindən olduğunu, son zamanlar köklü islahatların aparıldığını vurğulayan Sahib Məmmədov bu sahədə görülən işlərin nəticəsi olaraq, ümumi daxili məhsulda özəl sektorun payının 85%-ə, məşğulluqda isə 76%-ə çatdığını qeyd edib: “Bütün bunlar isə DİM-in səmərəli icrası baxımından mühüm əhəmiyyət kəsb edir. Özəl sektora göstərilən çoxşaxəli dövlət dəstəyi tədbirləri dövlət-özəl sektor münasibətlərini daha da inkişaf etdirməklə qarşıya qoyulmuş hədəflərə nail olunmasına öz töhfəsini verir. Sahib Məmmədov əldə olunan nailiyyətlərin beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirildiyini qeyd edib. Belə ki, Dünya Bankı tərəfindən hazırlanan “Doing Business 2019” hesabatında Azərbaycan dünyanın ən islahatçı 10 ölkəsi siyahısına daxil edilmiş və ən çox islahat aparan ölkə elan olunub. Hesabatda Azərbaycanın mövqeyi 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerə, MDB ölkələri arasında isə liderlik mövqeyinə yüksəlib”.

Paneldə çıxış edən Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev, “Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi.” şirkətinin Azərbaycan və Gürcüstan üzrə rəhbəri Günel Rəcəbova, Beynəlxalq Maliyyə Korporasiyasının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Aliyə Əzimova və “Azərbaycan Qadın Sahibkarlığının İnkişaf Assosiasiyası” İctimai Birliyinin sədri Səkinə Babayeva DİM-lərin səmərəli icrasında özəl sektorun rolundan danışıblar. Panel iclasda DİM-lərinə nail olmaq üçün dövlət-özəl tərəfdaşlığının gücləndirilməsi, bu sahədə sahibkarlığın töhfəsi barədə fikir mübadiləsi aparılıb.

*İnam Hacıyev*



## Yoakim Bröyer: “Azərbaycan sosial təminat sahəsində ciddi uğurlara imza atıb”

Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov mayın 15-də Beynəlxalq Sosial Təminat Assosiasiyasının prezidenti, Almaniyanın İş Yerində Bədbəxt Hadisələrdən Sosial Sığorta Təşkilatının rəhbəri Yoakim Bröyerin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Baş Nazir Novruz Məmmədov Bakıda keçirilən Beynəlxalq Sosial Təminat Assosiasiyasının (BSTA) Avropa Regional Sosial Təminat Forumunun əhəmiyyətindən danışaraq bu tədbirin Azərbaycan üçün də mühüm önəm kəsb etdiyini diqqətə çatdırıb. “Hesab edirəm ki, Forumda aparılan müzakirələr Azərbaycanda bu istiqamətdə görülən işlərə öz töhfəsini verəcək”, - deyə Novruz Məmmədov vurğulayıb.

Azərbaycanın Beynəlxalq Sosial Təminat Assosiasiyasının fəaliyyətində yaxından iştirak etdiyini qeyd edən Baş Nazir ölkəmizdə sosial sahədə görülən işlər barədə qonağa məlumat verib. Bildirib ki, Azərbaycan Hökuməti fəaliyyətində sosial məsələlərə hər zaman diqqətlə yanaşır. Həmçinin ölkəmizdə dövlət büdcəsi formalaşdırılarkən onun sosialyönümlü olmasına xüsusi diqqət ayrılır.

Prezident İlham Əliyev tərəfindən müxtəlif istiqamətlərdə, o cümlədən sosial sahədə reallaşdırılan islahatlardan, atılan addımlardan bəhs edən Novruz Məmmədov bildirib ki, Azərbaycanda Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin (DOST) yaradılması müxtəlif sosialyönümlü xidmətlərin vətəndaşlara tam şəffaf və operativ şəkildə, yüksək keyfiyyətlə təqdim olunmasını təmin edir.

Yoakim Bröyer Forumun təşkilinə göstərilən dəstəyə, qonaqpərvərliyə görə minnətdarlığını ifadə edib. O, Azərbaycanda sosial sahədə aparılan islahatları yüksək qiymətləndirərək, bu istiqamətdə görülən işlərin möhkəm siyasi iradə sayəsində mümkün olduğunu bildirib. Qeyd edib ki, Azərbaycan sosial təminat sahəsində ciddi uğurlara imza atıb, ölkədə bu istiqamətdə vacib islahatların reallaşdırılması üçün əməli işlər görülür. “DOST” mərkəzində olduğunu, oradan çox müsbət təəssüratlarla ayrıldığını bildirən Yoakim Bröyer Azərbaycanın bu layihəsinin dünya miqyasında uğurlu yenilik olduğunu diqqətə çatdırıb. Görüşdə qarşılıqlı maraq doğuran məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

## Dmitri Savelyev: Qonaqpərvərlik Azərbaycanın milli sərvətidir



Bakıya ən müxtəlif xalqların, mədəniyyətlərin və dinlərin nümayəndələri gəlir, bu halda heç kəs Azərbaycanda özünü qərib hiss etmir, ən səmimi qəbulla qarşılaşır. Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri, RF Dövlət Dumasının deputatı Dmitri Savelyev bu fikri AZƏRTAC-a müsahibəsində söyləyib. Onun sözlərinə görə, Azərbaycan qlobal miqyaslı idman, mədəni və siyasi tədbirləri ən yüksək səviyyədə təşkil etməyi bacardığını əməli surətdə sübut edib.

Rusiyalı deputat deyib: “İki il bundan əvvəl Avropa Futbol Federasiyaları Assosiasiyası final matçlarının keçirilməsi üçün üç şəhər arasında seçim apararkən haqlı olaraq məhz Bakının namizədliyi üzərində dayandı. Mən özüm tez-tez Azərbaycanda oluram və açıq deyə bilərəm ki, bu ölkədə qonaqpərvərlik ab-havası milli sərvətdir: azərbaycanlılar son dərəcədə xeyirxah və səmimi insanlardır. Böyük Britaniyanın Azərbaycandakı səfiri Kerol Kroftsun fikrincə, gözəl Bakı şəhəri ingiltərəli fanatların xoşuna gələcək. Mən isə tam əminəm ki, Bakı Olimpiya Stadionunda keçiriləcək matç, necə deyərlər, hava şəraitindən asılı olmayaraq, dostluq ruhunda baş tutacaq, çünki idman ilk növbədə sülh və yalnız bundan sonra rəqabət deməkdir”.

# "Ailə dəyərlərinin möhkəmləndirilməsi cəmiyyətin mənəvi sağlamlığının əsasıdır"

Mayın 15-də Bakıda "Ailə dəyərlərinin möhkəmləndirilməsi cəmiyyətin mənəvi sağlamlığının əsasıdır" mövzusunda konfrans keçirilib. AZƏRTAC xəbər verir ki, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (AQUPDK) və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) tərəfindən keçirilən tədbir 15 may - Beynəlxalq Ailə Gününə həsr edilib. Əvvəlcə dövlət-ailə siyasətinə dair sənədli film göstərilib.

Tədbirdə çıxış edən AQUPDK-nın sədri Hicran Hüseynova Azərbaycan dövlətinin ailə siyasəti barədə məlumat verib. Bildirilib ki, tarixən ailə xalqımızın yüksək mənəvi dəyərlərinin qoruyucusu, genofondumuzun daşıyıcısı kimi milli inkişafımızda mühüm rol oynayıb. Azərbaycan xalqının tarixi köklərinə, mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Bu qiymətli sərvət yad təsirlərdən qorunmaqla yanaşı, dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edilməklə zənginləşdirilir. Buna görə də hazırda Azərbaycan ailəsi dünyada ən yaxşı ailə modellərindən hesab olunur.



Qeyd edilib ki, Azərbaycanda dövlət ailə siyasətinin formalaşması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Milli-mənəvi dəyərləri xalqımızın ən böyük sərvəti hesab edən Ulu Öndərimiz bu dəyərlərin qorunmasının vacib olduğunu bütün çıxışlarında dəfələrlə qeyd edirdi.

Ulu öndər Heydər Əliyevin ailə siyasəti Azərbaycanda bu gün də məqsədyönlü şəkildə həyata keçirilir. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva milli-mənəvi dəyərlərin qorunmasına böyük diqqət və qayğı göstərirlər. Prezident İlham Əliyev hər zaman qeyd edir ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun maraqları, rifahı durur. Bunun bariz nümunəsi hər il dövlətimizin başçısının imzaladığı fərman və sərəncamların 65 faizinin məhz sosialyönümlü olmasıdır.

DQİDK-nın sədri Mübariz Qurbanlı çıxışında Azərbaycanda ailə dəyərləri, ailə institutunun formalaşması və qorunub saxlanılmasında milli və dini dəyərlərin əhəmiyyəti barədə danışıb. Bildirib ki, müasir dünyanın qlobal problemlərindən biri sosial-mənəvi mühitin saflığının qorunmasıdır. Bu baxımdan, ailə istər şəxsiyyət, istərsə də bütövlükdə cəmiyyət üçün əhəmiyyəti artmaqda olan ümumbəşəri dəyər, mədəni irs, əxlaqi norma və qaydaların ötürücüsü rolunu oynayır. Ailə institutunun möhkəmləndirilməsi məqsədilə milli-mənəvi dəyərlərin cəmiyyətdə düzgün təbliği, qadın və uşaq hüquqları sahəsində maarifləndirmənin təşkilində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə sıx əməkdaşlığa toxunan Mübariz Qurbanlı vurğulayıb ki, din adı altında ailə dəyərlərimizə mənfi təsir etməyə çalışanlara qarşı təbliğatı gücləndirməliyik. Bütün dinlərin özündə həm əxlaqi-mənəvi, həm də tərbiyəvi xüsusiyyətləri birləşdirdiyini deyən DQİDK sədri İslamda sağlam cəmiyyətin qurulması üçün təməl qurum olan ailənin üzvlərinin elmli, bilikli olmasına böyük önəm verildiyini qeyd edib. Komitə sədri bildirib ki, milli-mənəvi dəyərlərin, adət-ənənələrin qorunub saxlanılmasında, cəmiyyətin saflığının və əxlaqi dəyərlərinin qorunmasında və gələcək nəsillərə ötürülməsində ailə çox böyük rol oynayır. Ailədəki mehribanlıq, sevgi, qarşılıqlı hörmət, həmrəylik cəmiyyətin vəhdətinə, birliyinə səbəbdir. Azərbaycan xalqının ailə dəyərlərinin tərkibində həm İslamdan, həm milli adət-ənənələrimizdən, həm də müasir günümüzün tələblərindən qaynaqlanan yüksək keyfiyyətlər var. Bu baxımdan Azərbaycan ailəsi özündə Şərqlə Qərbin yüksək dəyərlərini cəmləşdirir.

Milli Məclisin ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı bildirib ki, xalqımız hər zaman ailə dəyərlərini hər şeydən uca tutub və bu, bizim milli adət-ənənəmizə çevrilib. Biz bu qiymətli sərvəti yad təsirlərdən qorumaqla yanaşı, dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək zənginləşdirir, gənc nəslin sağlam ruhda tərbiyə olunmasına çalışırıq. Milli-mənəvi dəyərləri xalqımızın ən böyük sərvəti hesab edən ulu öndər Heydər Əliyev bu dəyərlərin qorunmasının vacibliyini daim vurğulayırdı.

Dövlət müstəqilliyimiz bərpa edildikdən sonra ölkəmiz qadın hüquqlarının qorunması üzrə, demək olar ki, bütün mühüm beynəlxalq sənədlərə qoşulub. Ailə institutunun möhkəmlənməsi, gender bərabərliyinin təmin edilməsi dövlətimizin diqqətində olan mühüm məsələlərdən biridir.

BMT-nin Əhali Fondunun baş müşaviri Fərid Babayev təmsil etdiyi təşkilatın Azərbaycanda müvafiq sahədə gördüyü işlər barədə məlumat verib. Bildirilib ki, hər bir xalqın özünəməxsus ənənələri və dəyərləri mövcuddur. Ailə institutu bizim cəmiyyətdə əvəzolunmaz dəyərdir, müqəddəsdir, milli-mənəvi dəyərlərimizin əsas sütunlarındandır. Ailə institutunun cəmiyyətimizin, dövlətimizin inkişafında böyük rolu var. Çünki şəxsiyyətlər məhz ailədə formalaşır. Humanizm, vətənpərvərlik, xeyirxahlıq, mərdlik, xeyriyyəçilik ailədə formalaşan ən yüksək keyfiyyətlərdir. Bu baxımdan ailənin rolu əvəzsizdir.

Təhsil nazirinin müavini Firudin Qurbanov bildirib ki, yüksək mədəniyyətə malik şəxsiyyətin formalaşmasında sosial mühit böyük rol oynayır. Lakin bu prosesdə aparıcı rol ailəyə məxsusdur. Ailənin ruhi mədəniyyəti anadangəlmə keyfiyyətlərdən, təhsildən, tərbiyədən və yaradıcı əməkdən, bilik və mənəviyyatdan, bir-birinə və ətrafdakılara olan məhəbbət və inamdan formalaşır. Azərbaycan ailəsi milli adət-ənənələrimizi yaşatmalı, övladlarımız milli-mənəvi dəyərlərimiz ruhunda tərbiyə olunmalıdırlar. Cəmiyyətin inkişafı ailənin rifahından, ailədaxili sağlam mənəvi mühitdən, ailə münasibətlərinin yüksək əxlaqi dəyərlər əsasında təşkilindən çox asılıdır. Cəmiyyətin və dövlətin tərəqqisində xüsusi rolu olan ailə öz bütövlüyünü qoruyub saxlayır. Azərbaycan ailəsi dünyada özünəməxsusluğu ilə seçilir.

Gənclər və idman nazirinin müavini Fərhad Hacıyev deyib ki, bu gün dövlətimiz gənclərə böyük imkanlar yaradıb. Onlar bu imkanlardan istifadə edib mənəvi dəyərlərimizin qorunması işini gücləndirməlidirlər. Azərbaycanda ailə dəyərləri mühüm yer tutur. O, Azərbaycan ailəsinin, hər şeydən əvvəl, milli adət-ənənələrimizi özündə yaşatmasının əhəmiyyətini qeyd edib. Aparılan davamlı və məqsədyönlü siyasət bütövlükdə ölkəmizdə ailə institutunun inkişafına müsbət təsir göstərib. Milli adət-ənənələrimizə və mənəvi dəyərlərimizə əsaslanan Azərbaycan ailəsi möhkəm özüllü ailə modeli kimi cəmiyyətdə mövqeyini qoruyub saxlayır. Biz hamımız ailənin hər bir insanın, cəmiyyətin və ölkənin həyatında necə mühüm əhəmiyyət daşıdığını bilirik. Məhz ailədə əxlaq, mənəviyyat və vətənpərvərliyin əsasları qoyulur. Sağlam, möhkəm ailə hər bir cəmiyyətin çiçəklənməsinin qarantıdır. Ailə münasibətləri insan həyatının mühüm aspektlərindən birini təşkil edir.Tədbir müzakirələrlə davam edib.

# Zakir Həsənov: Azərbaycan Ordusunun şəxsi heyəti yüksək döyüş əzminə və qələbə ruhuna malikdir



***Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində hərbi hissələrin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə komandir müavinləri, eləcə də hərbi psixoloqlarla görüşüb.***

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə çıxış edən general-polkovnik Zakir Həsənov cari ilin ötən dövründə döyüş və mənəvi-psixoloji təminat sahəsində fəaliyyətlərin təhlilini aparıb, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ordu quruculuğuna göstərdiyi diqqət və qayğını xüsusi vurğulayıb.

Nazir bildirib ki, ordu rəhbərliyi şəxsi heyətin azərbaycançılıq ideyası əsasında tərbiyə olunmasını diqqət mərkəzində saxlayır, Azərbaycan əsgərinin vətənpərvər ruhda formalaşmasını, Vətənə, dövlətə sadiq xidmət göstərməsini təmin edir. Azərbaycançılıq ideyasını, Heydər Əliyev irsini dərindən mənimsəmiş şəxsi heyət yüksək döyüş əzminə və qələbə ruhuna malikdir, Ali Baş Komandanın istənilən əmrini yerinə yetirməyə qadirdir. Orduda həyata keçirilən islahatlar, qazanılan nailiyyətlər, məişət və xidmət şəraitinin yaxşılaşdırılması məqsədilə görülən quruculuq işlərindən danışan nazir tərbiyə işinin də planlı şəkildə aparılması, qoşunların döyüş tapşırıqlarını yerinə yetirməyə hər an hazır vəziyyətdə olmaları üçün ideoloji iş və mənəvi-psixoloji təminatın daima gücləndirilməsi ilə bağlı vəzifəli şəxslərə konkret tapşırıqlar verib.

# Azərbaycanda gənclərin fəallığını stimullaşdıran hüquqi baza mövcuddur

***“Bu gün Azərbaycan gəncləri müstəqillik dövründə yaşayırlar. Bu, böyük xoşbəxtlikdir. Bu gün hər bir vətənpərvər azərbaycanlı haqlı olaraq fəxr edir ki, o, müstəqil Azərbaycan Respublikasının vətəndaşıdır. Ölkəmizin hərtərəfli inkişafında gənclərimizin çox böyük rolu vardır. Gənclər müxtəlif sahələrdə çox uğurla fəaliyyət göstərirlər, ölkəmizin ümumi inkişafına böyük töhfə verirlər”. Dövlətimizin başçısı İlham Əliyevin Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında söylədiyi bu fikirlər arxada qalan illərin aydın mənzərəsini yaradır. Təbii ki, hansı sahədən bəhs ediriksə, ilk növbədə, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin xidmətlərini xüsusi qeyd etməyə böyük zərurət duyulur. Gənclərə diqqət və qayğı ümummilli lider Heydər Əliyevin hakimiyyətinin hər iki dövründə həyata keçirilən siyasətin əsasında dayanıb.***



**Səlim Rəhimzadə**
**AZƏRTAC-ın müxbiri,**
**Yeni Azərbaycan Partiyası**
**Yasamal rayon təşkilatı**
**Gənclər Birliyinin sədr müavini**

Gəncləri Azərbaycanın gələcəyi kimi dəyərləndirən Ulu Öndər, eyni zamanda, bildirirdi ki, cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaq. Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməli, lazımi fəaliyyət göstərib, öz xalqına, dövlətinə xidmət etməlidir.

Tarixi paralellər fonunda təhlil apardıqda görürük ki, dahi şəxsiyyət Heydər Əliyev hakimiyyətinin birinci dövründə daha çox gənclərin bir kadr kimi yetişməsinə çalışırdısa, 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra onların dövlətin idarə edilməsində fəal iştirakını təmin etmək üçün biri-birindən mühüm addımlar atmışdır. Ümummilli Liderin hakimiyyətinin birinci dövründə minlərlə Azərbaycan gəncinin keçmiş ittifaqın ən nüfuzlu ali məktəblərində müxtəlif ixtisaslar üzrə təhsil almağa göndərilməsi də bu istəyin göstəricisidir. 1993-cü ildən başlanan Heydər Əliyev yolunun mühüm uğurları sırasında da gənclərin dünyanın müxtəlif ali məktəblərinə göndərilməsi siyasətinin davam etdirilməsi əsas yer tutur. Müxtəlif ölkələrlə əməkdaşlıq müqavilələri çərçivəsində ayrılmış təqaüd yerləri hesabına gənclərimiz bu və ya digər ölkələrdə ali təhsil almağa göndərilmişdir.

Bu fakt da inkaredilməzdir ki, Azərbaycan dövlətinin gənclər siyasətinin formalaşmasında, gənc nəslin geniş fəaliyyət meydanına çıxarılmasında Ulu Öndərin təşəbbüsü və iştirakı ilə keçirilən Gənclərin I Forumunun xüsusi rolu olub. 1996-cı il fevralın 2-də keçirilən bu Forum Ümummilli Liderin gənclərə bağlı strategiyasının ilk təntənəsi kimi dəyərləndirildi. 1997-ci ildə ulu öndər Heydər Əliyevin Sərəncamı əsasında I Forumun keçirildiyi tarix, 2 fevral Azərbaycanda Gənclər Günü elan edildi. Növbəti illərdə ənənəvi olaraq keçirilən Gənclər forumları gənclərin fəallığında mühüm dönüş yaratmaqla, fəaliyyət istiqamətlərinin genişləndirilməsində stimulverici amil rolunu oynadı. Qeyd edək ki, ötən il “Azərbaycan Xalq Cümhuriyyəti İli”ndə “Cümhuriyyətin varisləri-Azərbaycanın gələcəyi” şüarı altında Azərbaycan Gənclərinin VIII Forumu keçirildi.

Əvvəldə də qeyd etdiyimiz kimi, Azərbaycan gənclər ölkəsidir. Bu gün bu fikri böyük fəxr hissi ilə qeyd edirik ki, ulu öndər Heydər Əliyevin yaradıcısı olduğu, hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edən, sıralarını günbəgün kəmiyyət və keyfiyyət baxımından daha da zənginləşdirən Yeni Azərbaycan Partiyasında gənclərimiz çoxluq təşkil edirlər. Ümummilli Lider Yeni Azərbaycan Partiyasının II qurultayında partiyanın sıralarında gənclərin çoxluq təşkil etməsinin vacibliyini bildirərək xüsusi qeyd etmişdir ki, gənclər bu partiyada birləşməlidir. Bu mühüm məqam da diqqətə çatdırılmışdır ki, gənclər Azərbaycanın müstəqillik yolunun nə qədər ağır dövr keçməsindən xəbərsizdirlər. Onlara həmin dövrün reallıqlarının olduğu kimi çatdırılması vacib şərtdir. Partiyanın gələcəyinə böyük inamla yanaşan dahi şəxsiyyət Heydər Əliyev bildirmişdi: “Həm indi partiyamızda üzv olan, həm də gələcəkdə üzv olacaq gənclərin hamısı bizim gələcək nəsillərimizdir. Onlar Naxçıvanda əsası qoyulan işlərin davamçıları və 1993-cü ildən hakimiyyətdə olan partiyamızın həyata keçirdiyi işin davamçıları olmalıdırlar. Hesab edirəm ki, biz elə nəsil tərbiyə etməliyik ki, onlar nəinki bizim dövrümüzdə, hətta bizdən sonra da Azərbaycanı fəlakətdən qorusunlar. Onlar düzgün, doğru yolla, milli hisslər yolu ilə getməli və partiyamıza sadiq olmalıdırlar”. Məhz bu diqqət və qayğının nəticəsidir ki, partiyanın sıralarında təmsil olunan gənclər onlara potensial imkanlarını ortaya qoymaq üçün böyük meydan verildiyini, gələcəyin liderləri kimi yetişmələri üçün biri-birindən önəmli layihələrin həyata keçirilməsindən məmnunluqlarını ifadə edirlər. Bu gün hər bir Azərbaycan gənci Heydər Əliyev ideyalarının təbliğatçısı olmaqla yanaşı, onlara yaradılan şəraitdən bəhrələnərək bütün qüvvə və bacarıqlarını Azərbaycanın daha qüdrətli, zəngin dövlətə çevrilməsinə yönəldirlər.

Son 15 ildə ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyev gənclərin böyük qüvvə olduğunu, Azərbaycanın gələcəyinin onlara məxsusluğunu, eyni zamanda, müasir dövrün informasiya-kommunikasiya texnologiyaları əsri olduğunu önə çəkərək, yüksək ixtisaslı gənclərin yetişdirilməsini qarşıya mühüm vəzifə kimi qoyur: “Peşəkar kadrların hazırlanması bu gün nəinki təhsil sahəsində, yaxud da ki, hansısa ayrı bir neft-qaz sahəsində, ümumiyyətlə, ölkə qarşısında duran ən vacib problemlərdən biridir və biz bütün sahələrdə buna nail olmalıyıq”. Ulu öndər Heydər Əliyev siyasətinin davamı olaraq dövlətimizin başçısı İlham Əliyevin 2007-ci il 16 aprel tarixli Sərəncamı ilə təsdiqlənən “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” Azərbaycan gənclərinin intellektual səviyyəsinin artırılmasına, elmi biliklərə dərindən yiyələnmələrinə, dünyanın qabaqcıl ölkələrinin təcrübəsini öyrənib, ölkəmizdə tətbiqinə, eyni zamanda, yeni texnologiyaların mənimsənilməsinə xidmət edir. Prezident İlham Əliyevin “neft kapitalını insan kapitalına çevirək” tezisi bu günümüzün reallıqlarında öz əksini tapıb. Neft-qazın Tanrıdan verilən böyük nemət olduğunu önə çəkən ölkə Prezidenti vurğulayır ki, gec-tez, bu təbii sərvətlər tükənəcək və bilik, zəka, səviyyə isə ölkəmizin dayanıqlı inkişafını uzun illər bundan sonra da təmin edəcək. Ən yaxşı inkişaf etmiş ölkələrin təcrübəsinə baxsaq görərik ki, o ölkənin inkişafında ən aparıcı rol oynayan neft-qaz deyil, bilikdir, elmi-texniki tərəqqidir, yeni texnologiyalardır.

Son 15 ildə təsdiqlənən Dövlət proqramlarına, imzalanan fərman və sərəncamlara diqqət yetirsək, Azərbaycan gəncliyinin inkişafının prioritetliyi daha aydın şəkildə diqqət çəkir. Belə ki, dövlətimizin başçısı İlham Əliyevin 2011-ci il 7 iyul tarixli Sərəncamı ilə təsdiqlənən “Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı”nın uğurlu icrasının davamı olaraq 2017-ci il 15 sentyabr tarixli Sərəncamla “Azərbaycan gəncliyi 2017- 2021-ci illərdə” Dövlət Proqramı təsdiqləndi. Qəbul olunan və uğurla icra edilən Dövlət proqramlarında bütün həllivacib məsələlər öz əksini tapır. Dövlətimizin başçısı İlham Əliyevin 2015-ci il 26 yanvar tarixli “2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası”nın təsdiq edilməsi haqqında Sərəncamı da gənclərin inkişafına yönələn addımların davamlılığından xəbər verir. Məqsəd gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında fəal iştirakını təmin etməkdir. Azərbaycan Prezidentinin fərmanları əsasında Gənclər Fondunun, Elmin İnkişafı Fondunun yaradılması, “Gənclər üçün Prezident Mükafatı”nın təsis edilməsi gənclərin nailiyyətlərinin qiymətləndirilməsi və stimullaşdırılması baxımından xüsusi önəm kəsb edir. Bu məqamı da xüsusi qeyd etməliyik ki, dövlətimizin başçısı İlham Əliyevin Sərəncamı ilə 2007-ci il ölkəmizdə “Gənclər İli” elan edilmişdi. İstər həmin il çərçivəsində görülən tədbirlər, istərsə də ölkə Prezidentinin tapşırığına uyğun olaraq növbəti illərdə davam etdirilən işlər Azərbaycanın gələcəyi olan gənclərin potensial imkanlarından səmərəli istifadəni əsas tələb kimi ortaya qoyub.

Dövlətimizin başçısı İlham Əliyevin Gənclər Gününə həsr edilmiş respublika toplantısında “Mən bütün gənclərə üz tutub deyirəm ki, təhsilə çox böyük fikir versinlər. Çünki bugünkü dünyada bilik, savad ön plandadır. Bu gün dünya o qədər sürətlə inkişaf edir, texnologiyalar o qədər sürətlə qabağa gedir ki, bilik, savad olmadan həyatda öz layiqli yerini tapmaq çox çətindir. Gənclər peşəkar olmalıdırlar. İstənilən sahədə işləyən gənclər çalışmalıdırlar ki, öz peşəkarlıqlarını artırsınlar” çağırışına uyğun olaraq təkcə son bir ildə gənclərin təhsilinin inkişafı istiqamətində ardıcıl addımlara diqqət yetirək. 2018-ci il 16 noyabr tarixli “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”nın, həmçinin 2018-ci il 23 noyabr tarixli “Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya”nın təsdiqlənməsi, cari ildə “Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə, “Doktorantura, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında” sərəncamlar, həmçinin “Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında” Fərman gənclərə öz bilik və bacarıqlarını artırmaq üçün geniş imkanlar açacaq.

Dövlətin gənclərə diqqət və qayğısı onların daha səylə çalışmalarında, davamlı uğurlarında stimulverici amildir. Bu gün böyük fəxr hissi ilə qeyd edirik ki, gənclərimiz müxtəlif beynəlxalq tədbirlərdə Azərbaycanı yüksək səviyyədə təmsil edir, keçirilən yarışlarda Azərbaycanın bayrağını ən yüksəklərə qaldırırlar. Gənclərimizin reallıqlarımızın təbliğində əhəmiyyətli rolu dövlətimiz tərəfindən daim yüksək dəyərləndirilir. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın fəaliyyəti, gördüyü işlər gənclərimiz üçün örnəkdir. Onun fəaliyyətində tariximizin, mədəniyyətimizin təbliği prioritet istiqamətlərdəndir. Leyla Əliyevanın təşəbbüsü ilə keçirilən “Xocalıya ədalət” kampaniyası çərçivəsində bütün dünya xalqlarına bəyan edilir ki, ermənilər tərəfindən əsl soyqırımına məruz qalan, torpaqları işğal olunan Azərbaycan xalqıdır. Leyla Əliyeva xaricdə yaşayan soydaşlarımızın təşkilatlanması və Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində göstərdiyi xidmətlərə görə Dünya azərbaycanlılarının III qurultayında “Tərəqqi” medalı ilə təltif olunmuşdur.

28 ilə yaxın müstəqillik tariximizin səhifələrini vərəqlədikcə hər günün Azərbaycan gəncliyinin həyatında, ictimai-siyasi fəallığında mühüm rol oynadığını görür və bundan qürur hissi keçiririk. Təbii ki, dövlətimizin gənclər siyasətini bir yazı çərçivəsində əhatə etmək qeyri-mümkündür. Atılan addımların davamlılığı bu çağırışa işarədir ki, Azərbaycan gəncliyi bilikli, savadlı, müasir dünyagörüşünə malik, yenilikçi, ən əsası vətənpərvər olmalı və milli maraqlarımızı qorumalıdır.

2016-cı ildə keçirilən ümumxalq səsverməsinə çıxarılan əlavə və dəyişikliklər sırasında yaş həddinin aradan götürülməsi də gənclərə diqqət və qayğının bariz nümunələrindəndir. Məqsəd dövlət idarəçiliyində gənclərin iştirakını daha da artırmaqdır. Gənclərin bələdiyyələrdə və parlamentdə təmsilçilik faizlərinin artırılması da onların ictimai-siyasi fəallığlarında əhəmiyyətli rol oynayır.

Sonda bu ümumiləşdirməni apara bilərik ki, Azərbaycan günbəgün yeniləşir, müasirləşir, yeni-yeni hədəflərə doğru inamla irəliləyir. Bu hədəflər daim Azərbaycan gəncliyindən yenilikçi olmağı, yeni texnologiyaların öyrənilməsinə və tətbiqinə maraq göstərməyi bir tələb kimi qarşıya qoyur. Dövlətimizin başçısı İlham Əliyevin Gənclər Gününə həsr olunmuş respublika toplantısında gənclərə bu çağırışını xatırlatmaq istərdik: “Sizin üçün ən başlıca vəzifə müstəqilliyi, milli maraqları qorumaq, Azərbaycanı yad təsirlərdən qorumaq və xalqımızın rahat həyatını təmin etməkdir. Mən şübhə etmirəm ki, siz buna hazırsınız. Azərbaycan gəncləri fəaldır, vətənpərvərdir, biliklidir, savadlıdırlar. Gənclər, mən sizə inanıram, güvənirəm”.

# YAP Ağsu rayon təşkilatı gənclər birliyinin V konfransı keçirilib

Dünən Yeni Azərbaycan Partiyası Ağsu rayon təşkilatı gənclər birliyinin V konfransı keçirilmişdir. YAP rayon təşkilatının üzvləri, konfransdan əvvəl Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, xatirəsini ehtiramla yad etmişlər. Tədbir işini YAP Ağsu rayon təşkilatının iclas zalında davam etdirib. Konfransı giriş sözü ilə açan






YAP Ağsu rayon təşkilatının sədri Əli Hüseynov Ulu Öndərimiz Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli, qürurverici tarixi yolundan, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin sosial-iqtisadi, hərbi və digər sahələrdə əldə etdiyi uğurlardan danışıb. Konfransda YAP Ağsu rayon təşkilatının gənclər birliyinin sədri Elnur Fərzəlizadə hesabat məruzəsi ilə çıxış etmişdir. E. Fərzəlizadə Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş gənclər siyasətinin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirmiş və bunun nəticəsində, ölkədə yüksək intelektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclərin formalaşdığını qeyd etmişdir.

Tədbirdə fəal gənclərdən Növcü kənd tam orta məktəbin direktoru Dilbər Məmmədova, YAP Ağsu rayon təşkilatının təlimatçısı Altun Şeydayev , Ülgüc kənd tam orta məktəbin müəllimi Leyla Beşirova çıxış ediblər.

Konfransda Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Əmək və Sosial Siyasət Komitəsinin sədri, siyasi elmlər doktoru, professor Hadi Rəcəbli, Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri, partiyanın Siyasi Şurasının üzvü Seymur Orucov, Ağsu rayon icra hakimiyyətinin başçısı, YAP Ağsu rayon təşkilatının idarə heyətinin üzvü Ənvər Seydəliyev çıxış edərək, ölkəmizin sosial-iqtisadi və ictimai-mədəni həyatında gənclərin uğurlarından və onlara göstərilən diqqət və qayğıdan danışıblar.

Konfransda təşkilati məsələlərə baxılmış, Fərzəlizadə Elnur Vahid oğlu YAP Ağsu rayon təşkilatı gənclər birliyinin sədri seçilmişdir. Eyni zamanda, 13 nəfərdən ibarət şuranın üzvləri, 9 nəfərdən ibarət idarə heyəti, sədr müavinləri, YAP Gənclər Birliyinin ümumrespublika konfransına nümayəndələr seçilmişdir.

**Rəfiqə**

# Təmraz Tağıyev: "Həmin qüvvələr rüsvay oldular, özü də Avropanın gözü Brüsseldə"

***"Brüsseldə Avropa İttifaqının Şərq tərəfdaşlığı sammiti zamanı bəzi Qərb dairələrinin və erməni lobbisinin sifarişlərini yerinə yetirən bir qrup dırnaqarası siyasi mühacirin uğursuz teatr tamaşaları bir daha onların antimilli və məkrli ünsürlər yığını olduğunu sübuta yetirdi". Bu fikirləri "SƏS" qəzetinə Yeni Azərbaycan Partiyasının Nərimanov rayon təşkilatının sədri Təmraz Tağıyev sözügedən məsələyə münasibətini açıqlayarkən deyib.***



Onun sözlərinə görə, Azərbaycanın dinamik inkişafı və aparılan inqilabi islahatlar beynəlxalq aləm tərəfindən də diqqətlə izlənilir və qiymətləndirilir: "Əlbəttə ki, bu inkişaf Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə olunur və əsas məqam da budur ki, xalqımız öz Prezidentinə, Onun yürütdüyü siyasətə inanır və dəstək verir. Heç bir aparıcı ölkədə bu cür sürətli inkişaf və tərəqqi prosesi getmir. O cümlədən, xalqın rifahının daha da yaxşılaşdırılması üçün, hətta dünyanın ən inkişaf etmiş dövlətlərində belə, bu qədər nəhəng sosial layihələr ardıcıllıqla reallaşdırılmır".

T.Tağıyev onu da bildirib ki, Azərbaycan dünyanın iqtisadi siyasətində mühüm yer tutur və enerji təminatçısı olaraq, həm də böyü layihələrin təşəbbüskarı, ideyavericisi qismində öndə gedir: "Ordumuz dünyanın ən güclü orduları sırasında yer alır. Sadalanan faktlar, yalnız bunlar deyil və digər əsaslı amillər də var ki, erməni lobbisi və onlara quyruq bulayan mənəviyyatsız satqınları ciddi şəkildə təlaşlandırır. Əbəs deyil ki, biz bunu yalnız Brüsseldə deyil, elə Azərbaycanda keçirilən müxtəlif sahələri əhatə edən böyük tədbirlər, konfranslar, idman yarışları, mədəniyyət və s. sahələr üçün nəzərə tutulan tədbirlər ərəfəsində də müşahidə edirik. Həmçinin, Qarabağ münaqişəsində ərazi bütövlüyümüzün qorunmasını əks etdirən bir çox sənədlərdə Azərbaycan diplomatiyası qətiyyətini nümayiş etdirir və Brüsseldəki Şərq tərəfdaşlığı sammitində biz ölkəmizin barışmaz mövqeyinin şahidlərinə çevrildik. Belə olan halda, həm daxili, həm də xarici qüvvələr müxtəlif çirkin məqsədlərini reallaşdırmağa çalışaraq, nailiyyətləri kölgəyə salmağa cəhdlər göstərirlər. Bu məsələdə erməni lobbisinin nökərləri olan sözdə siyasi mühacirlər, dərhal var-gəl edir, suyu bulandırmağa çalışırlar. Beləliklə, Avropaya sığınıb ölkəmizə qarşı qarayaxma kampaniyalarını davam etdirən "siyasi mühacirlər" milli maraqlarımızı düşmən erməniyə satmaqla öz mənəviyyatsızlıqlarını nümayiş etdirirlər".

YAP Nərimanov təşkilatının sədri, həmçinin bildirib ki, Brüssel sammitində qaldırılan əsas məsələlərdən biri də işğal olunmuş torpaqlarımızla bağlı məqam idi və erməni lobbisi, eləcə də, onların sapı özümüzdən olan baltaları hər vəchlə Qarabağ məsələsində haqqın-ədalətin Azərbaycanın tərəfində olmasının qarşısını almağa cəhdlər göstərdilər: "Onların bu məkrli planları da baş tutmamış qaldı. Azərbaycanın güclü diplomatiyası, yürüdülən məqsədyönlü, qətiyyətli və dönməz xarici siyasət öz sözünü dedi. Nəticədə, həmin qüvvələr rüsvay oldular, özü də Avropanın gözü Brüsseldə. Bu, onların ağır məğlubiyyətləri oldu. Brüsseldə edilən məkrli cəhdlər, əslində, belələrinin maskalarını bir daha yırtmış oldu. Sübut edildi ki, sapı özümüzdən olan baltalar, bilavasitə ermənilərin köləlləridirlər və onların bundan sonra, ümumiyyətlə, Azərbaycan adından danışmağa haqları və ixtiyarları yoxdur. Xalq öz dövlətinin yanındadır və dövlət də daim öz xalqının etimadına söykənərək, yolunu yalnız qələbələrə doğru davam etdirəcək. Bundan isə kimsənin şübhəsi olmamalıdır".

**R.KAMALQIZI**

# "ASAN Viza" vasitəsi ilə hava limanlarında 376 mindən çox turistə viza verilib

Artıq bir ildir ki, Azərbaycanın beynəlxalq hava limanlarında "ASAN Viza" sistemi vasitəsilə Birləşmiş Ərəb Əmirlikləri, Koreya Respublikası, Çin, İran, İsrail, İndoneziya, Küveyt, Qətər, Malayziya, Oman, Səudiyyə Ərəbistanı, Sinqapur, Türkiyə və Yaponiya vətəndaşlarına yerində vizaların verilməsi təmin edilir. Həmçinin "ASAN Viza" vasitəsilə diplomatik səfərlər, Formula 1, Avropa Liqası və s. bu kimi beynəlxalq tədbirlərlə əlaqədar Azərbaycana səfər edənlərin viza əldə etməsinə dəstək verilir.

AZƏRTAC xəbər verir ki, bu sözləri Elektron Hökumətin İnkişafı Mərkəzi publik hüquqi şəxsin direktoru Fariz Cəfərov jurnalistlərə açıqlamasında deyib. Mərkəzin direktoru bildirib ki, hava limanlarında vizaların yerində verilməsi prosesi hər bir əcnəbi vətəndaşın orta hesabla 2 dəqiqə vaxtını alır. Yeddi dildə fəaliyyət göstərən özünəxidmət terminalları və "ASAN Viza" əməkdaşları əcnəbilərin rahat şəkildə viza almasını təmin edirlər. Özünəxidmət terminallarından başqa xüsusi pəncərələrdə viza verilməsi və bank xidmətləri də həyata keçirilir, bu isə öz növbəsində ölkəyə gələn əcnəbilərə vizaların verilməsinə dəstək göstərir.

Ümumilikdə "ASAN Viza" sistemi vasitəsilə 95 ölkədən olan əcnəbilərə elektron vizaların verilməsi həyata keçirilir. "ASAN Viza" fəaliyyətə başladığı qısa müddət ərzində Azərbaycana səyahət üçün müraciət edən 1 milyon 222 mindən çox əcnəbiyə viza verilib.



Bura həm www.evisa.gov.az portalı vasitəsilə, həm də hava limanlarında verilən vizalar daxildir. Hava limanlarında 376 mindən çox turistə viza verilib.

Bu il Azərbaycana elektron viza üçün müraciət edən turistlərin sayı ötən ilin analoji dövrü ilə müqayisədə 72 faiz artıb. Hazırda UEFA Avropa Liqasının finalı ilə bağlı işlər davam edir. "ASAN Viza" əməkdaşlarının finala sayılı günlər qalmış gücləndirilmiş iş rejimində fəaliyyət göstərmələri planlaşdırılır. Həmçinin Heydər Əliyev Beynəlxalq Aeroportunda "ASAN Viza" xidmət terminallarının və əməliyyat pəncərələrinin sayı iki dəfədən çox artırılıb, gəliş vizalarının verilməsi proseduru sadələşdirilib, UEFA Avropa Liqasının finalı ilə bağlı vizaların verilməsi 30 saniyəyə qədər azaldılıb.

GƏNCLİYİN SƏSİ

# Gənclərin gözü ilə

## Gənclər dövlətimizin göstərdiyi etimadı layiqincə doğruldurlar

***Azərbaycan Prezidenti İlham Əliyevin məqsədyönlü siyasətinin nəticəsidir ki, bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşıb. Müasir dövrün qlobal çağırışlarına cavab verən, ölkənin siyasi, iqtisadi, mədəni həyatına töhfələr verən gənclər cəmiyyət daxilində sabitliyin və təhlükəsizliyin təminində də xüsusi rola malikdirlər. Gənclərimizin öz potensialından lazımi şəkildə istifadəsi üçün yaradılan şəraitlə bağlı gənclərimizin fikirlərini öyrəndik.***

### Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatı gənclər birliyinin fəalı Göyüş Göyüşov:



- Azərbaycanın əldə etdiyi uğurların bir təminatı da insan kapitalıdır, yüksək peşə vərdişlərinə və əqli potensiala malik gənclər ordusudur. Çünki gənclik daim axtarışda olan, yeniliyi sevən və ideyalarla zəngin bir qüvvədir. Bu gün Azərbaycanda gənclər siyasəti dövlətin böyük önəm verdiyi prioritet sahələrdəndir. Gənclərimiz də bu imkanlardan yararlanır və cəmiyyətin inkişaf prosesinin avanqardına çevrilirlər. Hazırda ölkəmizdə 200-dək gənclər təşkilatı fəaliyyət göstərir. Azərbaycan Gənclər Təşkilatı Milli Şurası Avropa miqyasında və beynəlxalq qurumlarda təmsil olunur. Onlar beynəlxalq tribunalardan xalqımızın haqq səsini dünyaya yayır, beynəlxalq ictimaiyyətin əsl həqiqəti bilməsi üçün var gücü ilə çalışırlar. Tələbə-gənclər təşkilatı universitetlərdə tələbələrə dəstək olur. Cənab Prezident təhsil müəssisələrinin ən müasir infrastruktura, standartlara cavab verən olması üçün çox mühüm tapşırıqlar və sərəncamlar verir. Dövlət başçısı tərəfindən ali təhsil müəssisələrində tələbələrin ən yüksək səviyyədə təhsil almaları üçün şərait yaradılıb. Belə ki, zəngin kitabxanalarımız və müasir cihazlarla təchiz olunmuş laboratoriyalarımıv var. Təhsil aldığım universitetdə ən yüksək səviyyədə təhsil almağımız üçün lazımi şərait yaradılıb. Gənclərimiz dünyanın hər guşəsində mədəniyyət, incəsənət, idman, elm və digər sahələrdə parlaq uğurlar qazanır və Azərbaycanın adını yüksəklərə qaldırırlar. Təsadüfi deyil ki, bütün dövrlərdə millətin adını tarixə yazan sağlam gənc qüvvələr olmuşdur. Millətin qəhrəmanlıq tarixini yazanlar da onlar olur.

Hər bir dövlətin əsas missiyası gələcəyini etibar edəcəyi nəsil hazırlamaqdır. Prezident İlham Əliyevin gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, onların faydalı məşğulluğunun təmin edilməsi, dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsi məqsədilə 2005-ci il avqustun 30-da imzaladığı "Azərbaycan Gəncliyi Dövlət Proqramının (2005-2009-cu illər) təsdiq edilməsi haqqında" Sərəncamı gənclərə dövlət qayğısının artırılması məqsədinə xidmət edib. Həmin Sərəncamda ölkəmizdə gənclərlə bağlı dövlət siyasətinin əsas istiqamətləri əksini tapmışdır. Bu istiqamətlər tamamilə xalqımızın milli mənafelərinin inkişafına yönələrək gəncləri ideya möəllifi olmağa səsləyirdi. Yəni hər bir gənc fərdi qaydada özünü idarəçi kimi yetişdirməli, daim təşəbbüskarlıq göstərməli, özünütənqidi də bacarmalıdır. Dövlət şərait yaratdı ki, hər bir gənc lap erkən yaşlarından özünəinamlı olsun, özünə güvənsin, özünü şəxsiyyət kimi yetişdirsin, problemlərin həlli yollarını özü düşünüb-tapsın, kimsədən asılı olmasın. Cənab Prezidentimiz fiziki məhdudiyyətli tələbələri də heç yaddan çıxarmamışdır. Bunun ən bariz nümunələrindən biri kimi "I və II qrup əlilliyi olan şəxslərin, habelə, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil haqqı xərclərinin ödənilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamını göstərmək olar.

Gənclik cəmiyyətin aparıcı qüvvəsidir. Bu tükənməz qüvvəni gənclər, yalnız yüksək elm və təhsil almaqla, müxtəlif qabiliyyət və bacarıqlara yiyələnməklə yarada bilərlər. Həmçinin, gənclik də əbədi deyil, keçəridir. Bu dövrün hər anından səmərəli istifadə etmək gərəkdir. Gəlin gəncliyimizi qoruyaq, bu gənclik illərimizi səmərəli şəkildə, dövlətimiz üçün, vətənimiz üçün istifadə edək!

### Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının tələbəsi Nicat Cəfərov:



- Ulu Öndər Heydər Əliyev Azərbaycanda gənclər siyasətinin təməlini qoymuş və gənclərə önəm vermişdir. Ümummilli Liderin gənclərə böyük etimadı nəticəsində, 1996-cı ildə 2 Fevral Gənclər Günü təsis edilmişdir və bu gün də gənclərə olan bu etimad Möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən layiqincə və daha da təkmilləşdirilmiş tərzdə həyata keçirilir. Biz gənclər olaraq, Cənab Prezidentin göstərdiyi bu diqqət və qayğını hər zaman hiss edirik. Gənclər üçün tikilən gənclər evləri, onlara idman sahəsində yaradılan şərait, təhsil almalarına ayrılan diqqət və s. dövlətin gənclərə olan qayğısının göstəricisidir. İstər ölkə daxilində, istər ölkə xaricində bu diqqət və qayğının nəticəsidir ki, gənclərimizin bu gün dünyaya inteqrasiyası sürətlə inkişaf etdirilir. Bu gün bizim gənclərimiz Avropanın, Asiyanın, eləcə də, Amerikanın bir çox tanınmış universitetlərində təhsil alır.

Cənab Prezidentimiz tərəfindən "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı" özündə onu göstərdi ki, Cənab Prezident, həqiqətən də, sadəcə, təhsilimizi deyil, bizim diasporumuzu da güclü inkişaf etdirir və bizim xaricdəki diasporumuza dəstək verir. Xaricdə təhsil alan hər bir azərbaycanlı gənc ölkəmizi tanıtmalı, milli-mənəvi dəyərləri, Qarabağ problemini dünyaya çatdırmağı bacarmalıdır. Biz Cənab Prezidentimizin göstərdiyi etimadı layiqincə doğrultmalı, Onun bizə verdiyi dəstəyi düzgün qiymətləndirməliyik. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva daima gənclərin yanında olur. Bildiyimiz kimi, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva, eləcə də, Heydər Əliyev Fondunun vitse-przezidenti Leyla xanım Əliyeva fiziki qüsurlu gənclərimizə xüsusi diqqət və qayğı göstərir, onları yenidən cəmiyyətimizə qaytarırlar. Bu nəcib əməllər cəmiyyətimizə əsl insanlıq nümunəsinin təqdimidir. Dövlətimizin qayğısı sayəsində minlərlə gənclərimiz xaricdə müayinəyə göndəririlir. Bunların hər biri Azərbaycan gənclərinə və gənclər siyasətinə verilən ən önəmli dəstəkdir. Cənab Prezidentin bu yaxınlarda imzaladığı Sərəncamla 18 yaşına çatmayan fiziki məhdudiyyətli gənclərin təhsil haqqı, təhsil ödənişi tam şəkildə dövlət tərəfindən ödəniləcəkdir. Bu, bizim cəmiyyətimizə, bizim gənclərimizin dünyaya inteqrasiyasının ən vacib faktorlarından biridir. Bu gün ölkəmizdə bizə verilən dəstəyin nəticəsidir ki, Milli Məclisin sıralarında, dövlət qulluğunda, eləcə də, bələdiyyədə və Nazirlər Kabinetində gənc kadrlarımıza üstünlük verilir. Biz bunları görürük və həyata keçirilən tədbirlər, bir gənc kimi, bizi daha da həvəsləndirir və Cənab Prezidentimizin göstərdiyi etimadı, güvəni bütün gücümüzlə layiqincə doğrultmağa çalışırıq.

*Zümrüd BAYRAMOVA*

## Amerikalı jurnalistin Azərbaycanda tolerantlıq ənənələri barədə məqaləsi dərc edilib


Azerbaijan: A Nation That Bears the Torch, and Burden, of Bringing Religious Freedom to its Less Tolerant Neighbours in the Region

***"International Observatory of Human Rights" təşkilatının saytında amerikalı jurnalist və siyasi icmalçı Adel Nazarianın məqalə dərc edilib. AZƏRTAC xəbər verir ki, materialda Azərbaycanda tolerantlıq ənənələrindən, Azərbaycan hökumətinin çoxkonfesiyalılığı və digər etnik qruplara hörmətli münasibəti təşviq edən siyasətindən bəhs olunur.***

Bu yaxınlarda Bakıda keçirilmiş Mədəniyyətlərarası dialoq üzrə V Ümumdünya Forumunda iştirak etmək üçün Azərbaycanda səfərdə olub müəllif qeyd edir ki, BMT üzvü olan ölkələrin liderləri həmin forumda əhalisinin əksəriyyəti müsəlmanlar olan dünyəvi respublikanın dünyanın qeyri-sabit hissəsində başqa millətlər üçün model rolunu daha da möhkəmlətməsi, bütün dünyada zoraki ekstremizmə qarşı mübarizə məsələlərini müzakirə ediblər. Nazarian qeyd edir ki, Bakıda Kaliforniya ştatının Los-Anceles şəhərindən olan yerli icmaların liderlərindən ibarət nümayəndə heyəti ilə birgə olub. Nümayəndə heyətinə iki ravvin, bir yepiskop, Pakistan-Amerika icmasının üzvləri, Obama Administrasiyasının keçmiş üzvü və iki jurnalist daxil idi.

Azərbaycanın coğrafi mövqeyi, Ermənistan-Azərbaycan münaqişəsi və Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal edilməsi barədə söhbət açan müəllif yazır ki, köhnəliklə yeniliyin üzvi şəkildə əlaqələndirildiyi bir məkan olan Bakı şəhərinin bəzi hissələrində müasir uca binalar fonunda tarixi tikililər qalıb. Postsovet məkanında əhalisinin əksəriyyəti müsəlmanlar olan bütün respublikalar arasında zəngin tarixi regionda yerləşməsi ilə fərqlənən Azərbaycanda dini etiqad azadlığı azərbaycanlılar üçün mühüm amildir.

Nazarian daha sonra nümayəndə heyətinin Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Azərbaycanın gələcək imamları və ilahiyyatçıları hazırlanan Bakı İlahiyyat İnstitutunun rektoru Ceyhun Məmmədov və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin direktoru vəzifəsini icra edən Rəvan Həsənovla, habelə Bakıdakı dağ yəhudiləri sinaqoqunda görüşlərindən aldığı təəssüratları bölüşür.

Azərbaycan hökumətinin "cəmiyyətdə dini dözümlülüyün və həmrəyliyin təşviqi üçün hər il dini qurumlara külli məbləğdə vəsait ayırdığını" vurğulayan Adel Nazarian qeyd edir ki, Bakıdakı Heydər Məscidi şiə və sünni məzhəbli müsəlmanların birlikdə cümə namazı qıldıqları yeganə məsciddir.

Müəllif yazır ki, Bakının mərkəzində ucaldılmış "Azad qadın" heykəli əhalisinin əksəriyyəti müsəlman olan bəzi ölkələrdə məcburi sayılan çadra örtülməsinə qarşı mübarizə əlaməti və qadın azadlığı hərəkatının mühüm rəmzlərindən biridir.Müəllif daha sonra Azərbaycandakı yəhudi icması barədə yazır. O qeyd edir ki, Azərbaycanda yəhudilər 2 min ildən çoxdur ki, yaşayır. Yaxın Şərqin digər ölkələrində və Avropa ölkələrində yəhudi əhalinin sürətlə azalması müşahidə olunduğu halda Azərbaycanda yəhudi əhali dövlət tərəfindən hər cür qayğı ilə əhatə olunub. Əhalisinin əksəriyyəti müsəlmanlar olan heç bir başqa ölkədə yəhudilər bu dərəcədə inkişaf etməyib. Bundan əlavə, Azərbaycan İsrail dövləti ilə sıx diplomatik əlaqə saxlayır.

## İqtisadiyyatda muzdla çalışan işçilərin sayı 3,2 faiz artıb



Aprelin 1-nə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 3,2 faiz artaraq 1 milyon 580,8 min nəfər olub. Dövlət Statistika Komitəsindən bildirilib ki, onlardan 896,2 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 684,6 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib. Muzdla işləyənlərin 21,2 faizi təhsil, 18,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 13,1 faizi sənaye, 8,4 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,9 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 6,9 faizi tikinti, 4,5 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,5 faizi peşə, elmi və texniki fəaliyyət, 3,1 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,6 faizi maliyyə və sığorta fəaliyyəti, 12,3 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olublar.

# Antimilli qüvvələr şərəfsizlik simvoluna çevrilirlər

*Orduxan Teymurxan kimilərin Brüsseldə aksiya keçirməyə cəhd etmələri erməni lobbisinin sifarişi olduğu sübuta yetirildi. Brüsseldə Avropa Şərq Tərəfdaşlığı sammiti zamanı 3-4 nəfər erməni lobbisindən maliyyələşən antimilli qüvvələr aksiya keçirməyə cəhd ediblər. Həmin şəxslər ölkəmizin milli və dövlətçilik maraqlarına qarşı çıxmaqla və müxtəlif pozucu şüarlar səsləndirməklə, yarıtmaz və şivən qrupu üzvləri olduqlarını nümayiş etdiriblər. Söhbət etdiyimiz müsahiblərimiz Brüsseldə aksiya keçirməyə cəhd edən "azərbaycanlılar"ın erməni maraqlarına və erməni lobbisinin təsiri altına düşən şəxslər olduqlarını bildirdilər.*



**"Həftə İçi" qəzetinin baş redaktoru Sevinc Seyidova: "Antimilli qüvvələrin başında erməni lobbisi dayanır "**

- Mayın 13-də Brüsseldə 3-4 nəfərlik qrupun aksiya keçirmək cəhdi bu insanların Azərbaycan dövlətinə və xalqına hansı münasibəti göstərdiklərini nümayiş etdirdi. Dəfələrlə qeyd edilib ki, Azərbaycan dövləti hər zaman dünya əhəmiyyətli tədbirlərə ev sahibliyi etmək ərəfəsində olduqda, bu şəxslər sanki yuxudan ayılırlar. Azərbaycan adının dünyanın aparıcı kütləvi informasiya vasitələrində, müsbət mənada sıx hallanması, bəzi qüvvələri ciddi şəkildə narahat edir. Antimilli qüvvələrin başında isə erməni lobbisi dayanır. Çünki bizim Dağlıq Qarabağ münaqişəsi kimi ciddi problemimiz var. Dövlətimizin inkişafı, güclənməsi, beynəlxalq nüfuzunun getdikcə artması, torpaqlarımızı 25 ildən artıqdır işğal altında saxlayan Ermənistanı və onun əsas hamisi olan erməni lobbisini razı sala bilməz. Bu səbəbdən, həmin qüvvələr əllərinə fürsət düşdükcə, Azərbaycan haqqında mənfi rəy formalaşdırmağa çalışırlar. Təəssüflər olsun ki, bu çirkin kampaniyada bəzi "soydaşlarımız" da canfəşanlıq göstərirlər. Erməni lobbisindən aldıqları pulların haqqını vermək üçün dövlətlərinə qarşı heç bir çərçivəyə sığmayan yollara belə əl atırlar. Onlar Azərbaycan dövlətinin və xaricdəki diasporumuzun erməni işğalına son qoymaq istiqamətində səylərinin zəiflədilməsinə səy göstərir, buna görə də, erməni lobbisinin tapşırıqlarına əsasən, dövlətimizi gözdən salmağa çalışırlar. Bu aksiya cəhdi ilə bağlı yayılan videogörüntülərdə də əyani şəkildə onların heç kim tərəfindən dəstəklənmədiyi açıq şəkildə görünür. Azərbaycan ictimaiyyəti öz dövlətinə, rəhbərinə inanır və Onu dəstəkləyir.



**Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, fəlsəfə doktoru İlqar Orucov: "Orduxan və digər satqınlar tərbiyəsizlik edirlər"**

- Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Brüsselə işgüzar səfəri zamanı Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" Proqramının işə salınmasının 10 illiyi münasibətilə təşkil olunmuş bayram tədbirində, Avropa Komissiyasının sədri Jan-Klod Yunkerin hamiliyi ilə keçirilən konfransda, ölkəmizin Belçika Krallığındakı səfirliyinin yeni binasının açılışında iştirak edib. Kifayət qədər işgüzar proqram ilə zəngin səfər zamanı dövlət başçımızın Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk, belçikalıların Kralı Əlahəzrət Filip ilə görüşü də diqqətçəkən məqamlardan, dövlət başçımıza olan münasibətdən, Prezidentin nüfuzundan xəbər verirdi. Prezident İlham Əliyevin bütün görüşlərində, xüsusi olaraq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məlumat verərək Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğal olunduğunu, münaqişənin həllinin yalnız BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında və ölkəmizin ərazi bütövlüyü çərçivəsində mümkün olduğunu diqqətə çatdırması, prinsipiallıq nümayiş etdirməsi düşmən tərəfi və onların havadarlarını, xüsusilə, erməni lobbisini narahat etməyə bilməzdi. Erməni lobbisi və onları dəstəkləyən beynəlxalq güclər anti-Azərbaycan layihələrini dərhal işə saldılar. Həm may ayının 29-da paytaxtımızda keçiriləcək növbəti nəhəng idman yarışı ilə bağlı qərəzli, həqiqətdən uzaq təbliğat start götürdü, həm də bu layihənin birtərəfli olaraq illərlə hazırladıqları, müxtəlif vasitələrlə ələ keçirdikləri milli satqın Orduxan və onun ətrafına toplaşmış 3-4 başıpozuq vasitəsi ilə Brüsseldə Prezidentimizə, nümayəndə heyətimizə, bütövlükdə isə, dövlətimizə qarşı çirkin kampaniyaya başladılar. Bu ünsürlər tərbiyəsizcəsinə səfirliyimizin binası qarşısında, ölkə başçımızın yaşadığı otelin qarşısında aksiya təşkil edərək, növbəti murdar əməllərini videogörüntü vasitəsilə yayımlamağa başladılar. Yenə də dövlət başçımız təmkin nümayiş etdirdi. Halbuki bir neçə il öncə, oxşar hadisəni Türkiyə Respublikasının prezidentinə qarşı edəndə, mühafizəçilər sərt şəkildə hadisəyə müdaxilə etmişdilər. Nəticəsi də o oldu ki, aksiya iştirakçıları layiqli cəzalarını aldılar, prezident mühafizəçilərinə qarşı heç bir cinayət işi də açılmadı və ən nəhayət, bu kimi hadisə bir daha təkrarlanmadı. Çünki hər bir ölkənin prezidenti dövlətinin, xalqının rəsmi təmsilçisidir və ona qarşı təşkil olunmuş istənilən təxribat ölkəyə və xalqa qarşı yönəlmiş təxribat kimi qiymətləndirilir. O zaman Türkiyə prezidentinə qarşı hazırlanan oyunun arxasında duranlar, birdəfəlik başa düşdülər ki, dövlət başçısına qarşı təşkil edəcəkləri növbəti bu kimi tərbiyəsiz aksiyaların iştirakçıları daha da sərt formada cəzalanacaqlar. Ona görə də, bizim dövlətimizin başçısına qarşı bu kimi təxribatlara da analoji qaydada cavab verilmədir. Orduxan kimi satqın, əslində, heç Azərbaycan vətəndaşı da deyil, onun Azərbaycana faktiki heç bir aidiyyatı yoxdur. O, erməni lobbisinin pulu ilə, sifarişi ilə bu kimi təxribatları təşkil edir. Əminəm ki, onun bu kimi tərbiyəsiz davranışları hüquqi qiymətini almalıdır və alacaqdır da. Diqqətçəkən məqam nədir? Təsəvvür edin ki, sammitdə yekun bəyannamə imzalanmalı idi və Azərbaycan tərəfi bəyannamədə məhz ərazi bütövlüyümüzlə bağlı bəndin daxil edilməməsinə etiraz edərək, sənədi imzalamaqdan imtina edir və sənədə veto qoyur. Bu anda Orduxan və digər satqınlar Brüsseldə peyda olurlar və bu cür təxribat törədir və tərbiyəsizlik edirlər. Ərazi bütövlüyümüzlə bağlı məsələdə israrlı olmağımız yalnız erməni tərəfini narazı salmalı idi. Lakin rəsmi Bakının prinsipiallığı həm də orduxanları narazı salır və onları fəaliyyətə gətirir. Deməli, sadə bir məntiqlə bu satqınların erməni lobbisinin nökərləri olduğu və onların sifarişlərini icra etdikləri bir daha təsdiqini tapır.

**"Azadlıq Hərəkatçılar Birliyi"nin sədri Təhmasib Novruzov: "Bürüsseldə aksiya keçirən o üç-dörd nəfər qeyrətini-şərəfini itirənlərdir"**

- Köhnə kişilər deyərdilər ki, bir adam qeyrətini itirdisə, ondan nə desən gözləmək olar. O üç-dörd nəfər qeyrətini-şərəfini itirmişlərdəndir və bu mənada, onlardan istənilən əcaib hərəkət gözlənilməndir. Ancaq bu hərəkət artıq rəzilliyin pik nöqtəsidir. Yəni insan nə qədər alçala bilər ki, yad ölkədə mənsub olduğu millətin liderinə qarşı belə addım ata bilsin? Özü də elə bir liderə ki, ölkəyə rəhbərlik elədiyi on beş ildə, başqa ölkələrin yüz ilə qət edə bilmədiyi sürətli inkişafla dövləti dünyanın ən sayılıb-seçilən, iqtisadi, hərbi və mədəni cəhətdən analoqu olmayan inkişaf yoluna çıxarıb. Mən onları sənədlərinə görə, bizim millətdən olmalarına rəğmən, erməni tör-töküntüsü hesab edirəm. Çünki dünyada bizi gözü götürməyənlər, inkişafımıza qibtə edənlər çox olsa da, açıq düşmənçilik fəaliyyəti göstərən yalnız ermənilərdir. Bu gədə qırıxlarının da hərəkəti birbaşa Azərbaycan xalqına, Azərbaycan dövlətinə qarşı yönəldilmiş hərəkətdir və deməli, xalqımıza qarşı açıq düşmənçilik əməlidir. Bizim dünyada bir düşmənimiz var ki, o da, ermənidir. Məncə, rəzillik nümunəsi olan həmin üç-dörd nəfəri dünyaya gətirən, haram südlə, haram tikə ilə böyüdən atalar və analar sağdırlarsa, utanıb yerə girməlidirlər. Sağ deyillərsə, gərək onların qəbirləri çat-çat olsun ki, bu Vətənin, bu torpağın çörəyini yeyib, suyunu içib, havasını udub, elə ermənilər kimi, bu çörəyə, bu suya, bu havaya xəyanət edən vətənsizlər böyüdüblər. Açığını deyim ki, belə ünsürlərdən pul naminə hər cür rəzalət gözləyirdim, amma beləsi heç ağlıma da gəlməzdi. Avropada yaşayan yüzlərlə azərbaycanlı əllərində Dövlət Bayrağı Prezidentimizə dəstək nümayiş etdirir, üç-dörd zatını tanımayan gədə meydana çıxıb ermənilik edir. Böyük şairimiz Bəxtiyar Vahabzadənin bir beyti bu məqamda yerinə düşər: "Nə deyək bu miskin riyakarlığa, Yoxsa öz qınını bəyənmir bağa?"

**GÜLYANƏ**

## "Brüsseldə bağ verənləri anti-millilərin son iflası saymaq olar"

"Mayın 13-də Brüsseldə 3-4 nəfər antimilli ünsürün aksiya keçirmək cəhdi anlaşılmaz, gülməli və rüsvayçı təsir bağışladı. Aşkar görünür ki, antimilli radikal düşərgə böyük sürətlə aşılanır və sıraları seyrəlir. Az-çox məsuliyyət hissinə malik olan və öz ləyaqətinə hörmət edən bəziləri antimilli sıraları tərk edərək normal müstəviyə qayıdır, bəziləri xaricdəki düşmən mərkəzlərlə əməkdaşlığın artıq perspektivsiz olduğunu anlayır, bəziləri isə Azərbaycanın real gücünü nəhayət ki qəbul edir". Bu fikirləri SİA-ya açıqlamasında "Bakı Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib.

Baş redaktor bildirib ki, ötən gün Brüsseldə son çırpıntılar üçün toplaşan 3-5 radikal məncə tam iflas prosesi yaşayan radikalların son nümayəndələridir: "Ortada bir neçə nəfər qalıb. Bizim üçün vacib olan odur ki, radikal antimilli



qruplaşma Azərbaycana düşmən qüvvələrin əlində həm alət oldular, həm də onların oyunlarının içində əriyib gedirlər. Brüssel səhnəsini antimillilərin son iflas aksiyası da saymaq olar. Aksiya keçirdikləri anda onlar böyük təkərin altında əzilməkdən qurtulmağa çalışan kiçik əşyalara bənzəyir".

A.Quliyev söyləyib ki, antimilli yol tutanların vətənpərvərlik mövqeyindən danışmaq mümkünsüzdür: "Çünki, öz dövlətinə qarşı anti-Azərbaycan mərkəzlərinin oyununu oynamaq vətənpərvərlik adlana bilməz".

Siyasi ekspert qeyd edib ki, psevdovətənpərvərlərin Brüssel cəhdləri nəinki onların öz boslarının etimadını doğrultmadı, Azərbaycan cəmiyyətində də heç bir əks-səda vermədi: "Bu, belə də olmalı idi. Azsaylı antimilli qrup öz fiaskolarının son Brüssel mərhələsində bir vacib şansı əldən buraxdılar. Əgər onlar Avropa İttifaqının yekun bəyanatına münasibətdə Azərbaycan dövlətinin siyasətinə dəstək versəydilər, bütün əvvəlki günahlarına baxmayaraq reabilitasiya oluna və xalq qarşısında günahlarını yuya bilərdilər. Bu böyük şansın buraxılması o deməkdir ki, onların qismətində Azərbaycan tarixinin lənətlənmiş personaları kimi əbədi qalmaq rüsvayçılığı var imiş. Azərbaycan öz yolu ilə irəliləyir, əzilməkdə olan beş-üç radikalın çığır-bağır salması bu yola təsir gücündə deyil".

**Nailə Məhərrəmova**

# Cumub nə edəcəklər ki..?

## Sənan Nəcəfov: "Sinxron qarayaxma kampaniyası gedir, erməni sifariş verir, Orduxan və şaykası cumur"



***"Niyə narahat olmasınlar? Onların təqdim etdikləri Azərbaycanla real Azərbaycan arasında inanılmaz və diametral fərq var". Bu fikirləri "qhtxeber.az" saytının baş redaktoru, tanınmış jurnalist və ekspert Sənan Nəcəfov Facebook səhifəsində "siyasi mühacir" statusu altında erməni diasporunun maliyyə dəstəyi ilə antimilli fəaliyyət göstərən Orduxan Teymurxan və ətrafının Brüsseldə aksiya keçirmək cəhdlərinə və Avropa İttifaqının "Şərq tərəfdaşlığı" təşəbbüsünün 10 illiyinə həsr edilən toplantıdakı diplomatik qalmaqala münasibətini yazarkən qeyd edib.***

Ekspert, bir sıra detallara diqqət çəkərək, bildirib: "Sualın cavabı elə özündədir, elə bunu yazıb, Erik From demiş, nöqtəni qoyardıq, oxucular da gülərdi. Amma bəzi detallar var ki, aydınlıq gətirmək lazımdır. Beləliklə, bildiyimiz kimi, Avropa İttifaqının "Şərq tərəfdaşlığı" təşəbbüsünün 10 illiyinə həsr edilən və Brüsseldə keçirilən yubiley toplantısı zamanı diplomatik qalmaqal yaşanıb. Ali toplantıda Avropa İttifaqı ölkələrinin və "Şərq tərəfdaşlığı" təşəbbüsünə qoşulan ölkələrin xarici işlər nazirləri tərəfdaşlığın 10 illiyinə həsr edilmiş yekun bəyannamə imzalamalı idilər. Lakin sənəddə tərəfdaş ölkələrin ərazi bütövlüyünə dəstək ifadə olunmadığı üçün Azərbaycan tərəfi sənədi imzalamaqdan imtina edib. Açıqlamalara görə, sənədin bəzi detallarına Ukrayna və Gürcüstan da etiraz ediblər. Lakin bu iki ölkənin nümayəndə heyəti ərazi bütövlüyünün bəyannaməyə salınmasında Azərbaycan nümayəndə heyəti qədər israrlı olmayıb".

### "Bunu Azadlıq radiosu yazır, bu qədər həyasızcasına!"

"Halbuki xaricdə gizlənmiş bir keçmiş diplomat tam əks-məsələni sosial şəbəkələrdə dövriyyəyə buraxmışdı" deyə xatırladan Sənan Nəcəfov onun da müvafiq cavabının verildiyini qeyd edib: "Bu gün ağzının üstündən tərs şillə vuruldu. Bu, belə. Digər məsələ, bu məlumatı ilk yayan Azadlıq Radiosunun Avropa Bürosu olub. Məlumatda açıq qeyd edilirdi ki, Avropa İttifaqı ölkələrinin və "Şərq tərəfdaşlığı" təşəbbüsünə qoşulan ölkələrin xarici işlər nazirləri tərəfdaşlığın 10 illiyinə həsr edilmiş yekun bəyannamə imzalanması, məhz Azərbaycanın tələbi ilə baş tutmayıb. Azərbaycana qarşı kampaniyada media ruporu rolunu oynayan radio bunu etiraf edib. Amma görün bu radio nədə ikili yanaşmasını göstərib. Radionun açıqlamasında qeyd olunur ki, söhbət Dağlıq Qarabağdan gedir: "Harada ki, 90-cı illərdən Ermənistan tərəfindən dəstəklənən tanınmamış hökumət rəhbərlik edir". Təsəvvür edirsiniz? Bunu Azadlıq radiosu yazır, bu qədər həyasızcasına! Nə Ermənistan tərəfdən işğal olunmuş torpaqlar söhbəti, nə etnik təmizləmə, nə 1 mln. qaçqın və məcburi köçkün. Yalnız Ermənistan tərəfdən dəstəklənən tanınmamış hökumət. İndi özünüz qiymət verin. Bir tərəfdə Avropa sənədini imzalamaqdan ərazi bütövlüyü məsələsinə görə imtina edən Azərbaycan rəhbəri, digər tərəfdə anti-Azərbaycan şəbəkəsi, düşmənlər və onlara quyruq bulayan Orduxan və onun kimi ləyaqətini, şərəfini başqa ölkələrə satmış xəyanətkarlar. Mənzərə bu qədər aydındır".

### "Avropa İttifaqı və digər beynəlxalq nüfuzlu qurumlarla qarşılıqlı əməkdaşlığa bağlı hər hansı tədbir keçirilməsi ərəfəsində bu ünsürlərin, anti-Azərbaycan şəbəkəsinin şayba və boltlarının rəhbərlərindən sanki "fas" komandası gəlir"

Jurnalist, bir sıra mühüm statistik amillərə də toxunaraq davam edib: "İndi sualınıza cavab verim. Yaxın keçmişdəki 3 ilin statistikasına baxsaq, görərik ki, ölkədə olduqca vacib, əhəmiyyətli beynəlxalq tədbir, görüş, habelə, Avropa İttifaqı və digər beynəlxalq nüfuzlu qurumlarla qarşılıqlı əməkdaşlığa bağlı hər hansı tədbir keçirilməsi ərəfəsində bu ünsürlərin, anti-Azərbaycan şəbəkəsinin şayba və boltlarının rəhbərlərindən sanki "fas" komandası gəlir. Hətta 20 Yanvar faciəsi, Xocalı faciəsinin ildönümləri, dünya azərbaycanlılarının soyqırımı günü, Şuşanın işğalının ildönümü ərəfəsi yaramazlıqları, həyasızlıqları və şivənləri ərşə bürünür. Məqsəd, öz taktikalarına uyğun olaraq, ya diqqəti Azərbaycandan uzaqlaşdırmaq, ya da bütün diqqəti, məhz Azərbaycana cəlb etmək olur. Təkrar edirəm, hər şey sifarişə uyğun nizamlanır".

### "Aydın məsələdir ki, 3-4 ünsürün sərsəmliyi, xəyanəti və qara-qışqırığı Azərbaycanla Avropa İttifaqı əlaqələrinə heç bir təsir göstərə bilməz"

"İndi dünən 3-4 gədə-güdənin atdanıb-düşməsi, özlərini biabır etməsinə də bu prizmadan baxmaq lazımdır" deyə yazan ekspert sonda qeyd edib ki, ölkəmizin imici, qazanılan istənilən uğur xaricdəkiləri, düşmənləri və rəqibləri ciddi narahat edir: "Avropa İttifaqı ilə bağlanacaq saziş isə bütün ümidlərinin üstündən xətt çəkəcək. Niyə narahat olmasınlar? Onların təqdim etdikləri Azərbaycanla, real Azərbaycan arasında inanılmaz və diametral fərq var. Onlar inkişaf etmiş Azərbaycanın olmasında maraqlı deyillər təbii ki. Aydın məsələdir ki, 3-4 ünsürün sərsəmliyi, xəyanəti, qara-qışqırığı Azərbaycanla Avropa İttifaqı əlaqələrinə heç bir təsir göstərə bilməz. Sadəcə, bunlar üçün müqəddəs heç nə qalmayıb. Beləlləri üçün ləyaqət və mənlik hissləri yaddır. Bu fəaliyyətin, şou və qarayaxmanın isə demokratiya, siyasət və müxalifətçilik deyilən məfhumlara heç bir aidiyyatı yoxdur. Sadəcə, sinxron qarayaxma kampaniyası gedir, erməni sifariş verir, Orduxan və şaykası cumur. Məşhur lətifədə deyildiyi kimi, cumub nə edəcəklər ki?"

**RÖVŞƏN RƏSULOV**

# Rəzilliyin həddi yoxmuş



Təhmasib Novruzov

Yazılarımda tez-tez adını çəkib, deyimlərindən sitat gətirdiyim sadə peşə adamı, su cuvarı Şükür kişinin bir müdrik kəlamını da demək yerinə düşər. Rəhmətlik deyərdi ki, qeyrətini itirən adamdan nə pislik desən gözləmək olar, beləsinə heç vaxt etibar etməyin, yoldaşlıq eləsəniz də, ağacı əlinizdən yerə qoymayın, girəvə düşən kimi, o, ağacı sənin başına çırpar. Şükür kişinin bu dəyərli kəlamını adi həyatda çox sınamışam və başqa deyimləri kimi, bunda da quşu gözündən vurduğuna əmin olmuşam. Amma bir millətin oğlu (ən azı, sənədlərinə əsasən) olub, öz millətinə bu qədər qənim kəsilməyin şahidi olmamışdım. Ölmədik, bunu da gördük. Mövzuya girişim bir az uzun oldu. Amma içimdəki od məni elə yandırır ki, qorxuram mövzuya keçsəm, yanıb kül olam. Biz atasından (oxu: ölkəsinin başçısından) yadlara şikayət edənləri görmüşdük, oturub yadın evinin küncündə, onun qırıq-qurtuğu ilə qarnını doyurub, atasına şər- böhtan yağdıranlar görmüşdük, amma atasının qonaq getdiyi elit birinin qapısının ağzını kəsdirib, atasına hədyanlar söyləyənə rast gəlməmişdik. Biz, bir millət olaraq, tarix boyu çox bəşəri dəyərlərdə birinci olmuşuq, bəşəriyyətin inkişafına, bu baxımdan, töhfələr vermişik. Amma bəzən içimizdən elələri də çıxır ki, alçaldıcı, rəzilləşdirici əməlləri ilə də dünyada birinciliyə can atır və nə yazıqlar ki, buna nail olanlar da tapılır. Bunun da psixoloji baxımdan, başlıca səbəbi odur ki, hansısa bacarığı, qabiliyyəti ilə gündəmdə ola bilməyənlərin özünü cəmiyyətə sırımaq cəhdi tükənmir və heç bir şeyə nail ola bilmədikcə də, harınlaşır, qudurur və başlayır ətrafındakılara hürməyə. Ancaq daha bu qədər də yox! Bu gün bütün dünya Avropa ilə, Avropanın inkişaf eləmiş dövlətləri və birlikləri ilə sıcaq münasibətlər qurmağa can atır. Yəni Avropa elit bir diyardır və hər kəs bu elit diyarın sakinləri ilə yaxınlaşmaq, dost olmaq istəyir. Elə bizim şərəfini itirmiş bəzi siyasət gədələri də hər vəchlə Avropadan dəstək almağa can atırlar. İndi gəlin tarixi vərəqləyək, görək, hansısa Avropa ölkəsində, hansısa zamanda həmin ölkənin başçısının nüfuzuna zərər vurmaq naminə, alçaqlığı ilə anoloqu olmayan belə bir addım atdığının kimsə şahidi olubmu? Axı dövlətin başçısı adi vətəndaş deyil, həm də dövlətin təmsilçisi, atributudur! Namusunu, qeyrətini hərraca qoyan üç-dörd nəfər meydana atılıb hədyanlar söyləməklə, ölkəsi haqqında Avropada hansı fikirləri formalaşdırmaq istəyirlər? Erməni lobbisinin və ermənipərəst qüvvələrin bu millətə qarşı yönəldilmiş hər cür iyrənc kampaniyalarının düşmən əməli olduğunu anlayır və adi hal kimi qəbul edirik. Bəs sapı özümüzdən (yəni içimizdəki zatsızlardan) olan bu gədə-güdəni necə adlandıraq? Düşmən? Axı biz yer üzərində ancaq erməninin düşmən kimi tanıyır və fəaliyyətimizi də bu istiqamətdə qururuq! Belədə, bunları da düşmən adlandırsaq, deməli, həm də erməni olduqlarını təsdiqləmiş oluruq. Olsun! Amma erməni qanlılar bizim açıq düşmənimizdirsə, belələri daha təhlükəlidir. Çünki yenə Şükür kişi demiş, düşmən olduğunu bildiyin düşməndən qorxma, sənə dost deyib yanında gəzən düşməndən qorx. Kim nə deyir-desin, bu gədələrin indiki rəzilliklərinin nə demokratiya ilə, nə azad sözlə, nə də insan hüquqları ilə heç bir əlaqəsi yoxdur. Bunun bircə adı var: namus, qeyrət və şərəf tökümü. Əgər nəzərə alsaq ki, bizim ölkə başçısının analoqu olmayan uğurlu inkişaf konsepsiyasından rahatlığı pozulan düşmənlərimizlə birgə bu addımlar atılır, o zaman həmin sözlərin qarşısında milli sözünü də əlavə etməyə ehiyac var. Milli qeyrəti, milli namusu, milli şərəfi olmayanlardan isə, bundan artığını gözləməyinə dəyməz. Ən azı, belələrinə ictimai qınaq o səviyyədə olmalıdır ki, onları dünyaya gətirənlərin də, haram süd əmizdirib, haram tikə yedirdənin də xəcalət çəkmələrinə (əlbəttə, utanan sifətləri varsa) nail olaq. Həyatdan köçənlərin isə gorlarının cadar-cadar olması göstərir ki, daha kimsə əkib-törətdiyinin belə rəzilləşməsinə imkan verməsin. Xülasə, nə yaxşı ki, Avropada da, hər yerdə olduğu kimi, namuslularımız, qeyrətlilərimiz və şərəflilərimiz daha çoxdur, özü də qat-qat çoxdur. Təsəllimiz də həmin milli ləyaqət daşıyıcılarının onlara elə avropanın içində verdikləri təpkidir. Rəzillərin rəzilliklərini Avropanın içindəcə ifşa edən həmvətənlərimiz, ölkə başçısına verdikləri dəstəklə milli qürurumuzu müdafiə etmiş oldular. Düşmən də anladı ki, millətin şərəf daşıyıcıları şərəfini itirmişlərdən min dəfə, milyon dəfə çoxdur. Onlar pulla nə qədər şərəfsizləri satın alsalar da, şərəfini pula, meşşan həyata qurban verməyənlərin ağızdan ifraz olunan suyunda boğulacaqlar...

# İran portalında "Bakı Azərbaycanın incisidir" başlıqlı videoçarx yayılıb



İranın tanınmış "Aparat.com" videoportalında "Bakı Azərbaycanın incisidir" başlıqlı videoçarx yayılıb. AZƏRTAC xəbər verir ki, sözügedən videoda Bakı ilə yanaşı, ölkəmizin digər bölgələri ilə bağlı kadrlar da nümayiş etdirilir. Videonun şərhində qeyd olunur ki, Azərbaycan Respublikasının paytaxtı Bakı ən böyük şəhər və ən böyük limandır. Bu şəhər Abşeron yarımadasında, Xəzər dənizinin qərb sahilində yerləşir və dünyanın neft ilə zəngin olan bölgələrindən biridir. Bakı Qafqazın ən çox əhalisi olan şəhərdir. Bakıda çox sayda gözəl parklar var. Şəhərdə musiqi, teatr və opera daxil olmaqla digər bədii proqramlar da icra olunur.

# Ermənistan hakimiyyətində qütbləşmə və acından ölən xalq reallığı

## *Gevork Petrosyan: "Kimlərin hakimiyyətdə olması və həyatdan həzz alması 70 faizi aclıqla mübarizə aparan xalq üçün əhəmiyyətli deyil"*

***Ermənistan parlamentinin "Çiçəklənən Ermənistan" partiyasından olan fraksiya üzvü Gevork Petrosyan Facebook səhifəsində yazıb ki, iqtisadi inqilabın gecikməsi siyasi inqilabı mənasız edir. Erməni deputat, nəticədə, hakimiyyət dəyişikliyinin də heç bir rol oynamadığına işarə vuraraq, qeyd edib ki, belə vəziyyətlərdə soyuqqanlı və obyektiv olmaq lazımdır. "Kimlərin hakimiyyətdə olması və həyatdan həzz alması 70 faizi aclıqla mübarizə aparan xalq üçün əhəmiyyətli deyil - istər bu və ya digəri olsun. Əvvəl-axır bu ölkədə kimsə üzə çıxıb deməlidir ki, sadəlövh xalq hələ nə qədər gözləməlidir?" deyə G.Petrosyan yazıb.***



**Əks-qütblər, əsasən, parlamentin spikeri Ararat Mirzoyan və baş nazirin mətbuat katibi Vladimir Karapetyandır**

Bu arada, ölkənin "Past" qəzeti yazır ki, Ermənistanda, bir il öncə baş vermiş siyasi inqilab xalqa heç nə verməyib və bu istiqamətdə boş vədlər irəli sürülür. Digər tərəfdən, hakimiyyətin daxilində qarşıdurma və ziddiyyətlər yaşanır.

Paşinyan hakimiyyətində qütbləşmənin baş verdiyini yazan erməni nəşrinə görə, artıq hakimiyyət daxilində bir neçə qanadlar var və Paşinyan nə qədər bəyan etsə də ki, həmin qanadlar onu qorumaq üçündür, bu iddia məntiqsiz görünür.

Qəzet hakimiyyətdaxili qütbləşmədə konkret adlara da toxunub. Əks-qütblər, əsasən, parlamentin spikeri Ararat Mirzoyan və baş nazirin mətbuat katibi Vladimir Karapetyandır.

"Yeri gəlmişkən, hələ hakimiyyətə gəlməmişdən qabaq, bu iki şəxs arasında kəskin ziddiyyətlər olub və bu da onların telededbatları vaxtı üzə çıxan fikir ayrılıqlarından başlayıb" deyə "Past" yazır.

**Erməni KİV-lərində "İnqilab N2 gəlir" ifadəsi**

Ümumiyyətlə, Ermənistanda hakimiyyət daxilindəki qütbləşmələr, bununla da, sona çatmır. Ermənistan KİV-ləri güc strukturları arasında da kəskin qarşıdurmaların yaşanması barədə məlumatlar verirlər. Polis, Milli Təhlükəsizlik Xidməti, prokurorluq və s. strukturlar arasında bir sıra həll olunmayan məsələlər var ki, ümumilikdə, bütün bunlar xalqın ac və səfalət içərisində olması reallığını arxa plana keçirir. Daha dəqiq desək, Ermənistandakı mövcud hakimiyyətin inqilab eyforiyası bitib və verilən vədlərin heç biri reallaşdırılmayıb. Bu isə, ölkədə yeni və daha kütləvi inqilabın baş verməsi anonsunu önə çəkir. Əbəs deyil ki, artıq erməni KİV-lərində "İnqilab N2 gəlir" timsalında ifadələr səslənməyə başlayıb.

***Rövşən RƏSULOV***

# "Ermənilər humanist məsələlərə faşist kimi yanaşdıqlarını sübut etdilər"



***"Ermənistan-Azərbaycan sərhədini keçmiş ruhi xəstə Elvin İbrahimov mədəsindən əməliyyat olundu. Yayılan məlumata görə, mədəsində yad cisim olub. Əslində bu özü Ermənistan tərəfinin davranışı barədə daha aydın təsəvvür yaradan məlumatdır". Bunu SİA-ya açıqlamasında politoloq Mübariz Əhmədoğlu deyib. Politoloq bildirib ki, Elvin İbrahimov doğrudan da ruhi xəstədir: "Ermənilər E.İbrahimova qeyri-insani nəsə yedirdiblər, bəlkə də zəhər yedirdiblər, bəlkə də kerosin içirdiblər. Çünki kerosin içirtmək söhbəti ermənilərdə dəb mövzularından biridir. Manvel Saruxanyan Azərbaycanda olarkən Azərbaycan tərəfinin ona kerosin içirtdiyi barədə xeyli məlumatlar yayılmışdı. Saruxanyı hərtərəfli yoxladıqdan sonra bəlli oldu ki, bunda anadangəlmə dəri xəstəliyi var və o vəziyyətdə də Azərbaycana gəlib, o vəziyyətdə də qayıdıb. Ona görə mümkündür ki, ermənilər E.İbrahimovun üzərində eksperiment aparsınlar.***

İkincisi, mümkündür ki, ruhi xəstə olduğu üçün qaşıq, çəngəl və yaxud nəsə bir şey udsun. Hər halda istənilən mütəxəssis başa düşəcək ki, bu Azərbaycanın göndərdiyi təxribatçı deyil. Sərhədi keçən andan Elvin İbrahimovun üzərində Ermənistan tərəfi şou qurdu. Hərbi diversant Karen Kazaryanın atasını onunla görüşdürdülər, Elvin İbrahimova öz ata-anası ilə əlaqə saxlamağın yollarını "başa saldılar". K.Kazaryanın atasını Ermənistanın Müdafiə naziri D.Tonoyan qəbul etdi. Ermənistanın XİN rəhbəri K.Kazaryanı qaytaracaqları ilə bağlı bəyanat verdi. Amma bütün bunların hamısından əvvəl Beynəlxalq Qırmızı Xaş Komitəsinin təmsilçiləri E.İbrahimova baş çəkmişdilər. N.Paşinyan azıb sərhədi keçənlərin dəyişdirilməsinə Ermənistanın razı olduğunu bildirdi. Əslində bu Azərbaycanın "hamının hamıya" dəyişmək prinsipini unutdurmaq və yaxud ona uyğun təşəbbüs irəli sürməkdən başqa bir şey deyil".

M.Əhmədoğlu əlavə edib ki. N.Paşinyan Moskva görüşündən qabaq humanitar məsələlər barədə məlumat verdi: "Amma N.Paşinyanın verdiyi bəyanatdan bəlli oldu ki, onlar kiməsə, nəyəsə arxayındır və hansısa bir şəxsin qohumları ilə görüşməsinə razılıq verməməsi ucbatından Ermənistan tərəfi belə humanitar missiyanın reallaşmasına imkan verməyəcək. Görünür, Ermənistan bu təşəbbüsə razılıq verməzdən əvvəl artıq onu pozmağın variantını hazırlayıb".

# Azərbaycanın hava limanları 4 ayda 1,5 milyonadək sərnişinə xidmət göstərib



Heydər Əliyev Beynəlxalq Aeroportu cari ilin ilk 4 ayında 1,23 milyon sərnişinə xidmət göstərib. Aeroportun mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, beynəlxalq reyslərlə ümumilikdə 1,06 milyon sərnişin daşınıb. Göstərilən müddət ərzində aeroportun baza aviadaşıyıcıları - AZAL və "Buta Airways" müvafiq olaraq 511 min və 130 min 500 sərnişin daşıyıb. Bu isə ötən ilin göstəricisindən 6 min nəfər çoxdur. Beynəlxalq reyslərin ümumi sayının 32,3 faizi AZAL-ın, 12,3 faizi "Buta Airways"in payına düşüb. Göstərilən müddətdə xarici aviaşirkətlərin payı 55,4 faiz təşkil edib. Ümumilikdə Azərbaycanın beynəlxalq hava limanları 4 ayda 1,45 milyon sərnişinə xidmət göstərib. Bu, Cənubi Qafqazın bütün hava limanları arasında rekord göstəricidir.

Hazırda 26 sərnişin aviaşirkəti Heydər Əliyev Beynəlxalq Aeroportuna birbaşa aviareys yerinə yetirir. Gəncə və Naxçıvan hava limanlarından Moskvaya və İstanbula, Qəbələdən - Moskvaya birbaşa uçuşlar həyata keçirilir. Həmçinin milli aviadaşıyıcı AZAL Lənkərandan Moskvaya və geri istiqamətə müntəzəm birbaşa aviareyslər həyata keçirir. Həmçinin "flyNas", "Kuwait Airways" və Türkiyənin loukosteri "Pegasus"un uçuşlarının bərpa edilməsi planlaşdırılır.

Heydər Əliyev Beynəlxalq Aeroportu (IATA: GYD) sərnişin və yük daşımalarının, uçuş-enmə əməliyyatlarının həcminə, aerovağzal kompleksinin sahəsinə və yük terminalının buraxılış gücünə görə Azərbaycanın və regionun ən böyük aeroportudur. Paytaxt hava limanı ardıcıl olaraq üç ildir ki, Rusiya və MDB ölkələrinin bütün hava limanları arasında göstərilən xidmət səviyyəsinə görə "Skytrax World Airport Awards" versiyasına görə ən yaxşı siyahısına başçılıq edib, həmçinin maksimal "5 Ulduz" statusuna layiq görülüb. 2019-cu ildə Heydər Əliyev Beynəlxalq Aeroportu "Sky Travel Awards" versiyası üzrə 10 milyonadək sərnişin dövriyyəsi ilə ən yaxşı hava limanı seçilib.

## Azərbaycanın təbii qaz ixracı 2 dəfədən çox artıb

Cari ilin ilk 4 ayında Azərbaycandan 4 milyard 39 milyon 658 min kubmetr təbii qaz ixrac olunub. Dövlət Gömrük Komitəsindən (DGK) AZƏRTAC-a verilən məlumata görə, yanvar-aprel aylarında ixrac olunan təbii qazın dəyəri 637 milyon 955 min ABŞ dolları təşkil edib. Xatırladaq ki, keçən ilin eyni dövründə ölkədən 1 milyard 893 milyon 203 min kubmetr təbii qaz ixrac edilmiş, həmin ixracın dəyəri isə 342 milyon 922 min dollar olmuşdu.

# Satan-satılan yırtıcı quduzlar...

*Yaxud özgə yalı ilə yallananlar ulaya-ulaya qalacaqlar*



***Bu gün müxalifət deyəndə, satılan-satan dağıdıcı düşərgənin çaqqalları yada düşür. Bunu biz demirik, elə elmdə də belə adlanırlar- satqınlar. Baxın görün, Ömər Xəyyama görə satqınlıq nə deməkdir. ''İnsanın ruhu və əxlaqı nə qədər alçaq olarsa, burnunu bir o qədər dik tutar ki, bu da, həyasızlığın göstəricisidir''. Son dövrdə məlum ölkələrdə baş verən səs-küylü hadisələrdən sonra insanı satqınlığa hansı vəziyyətin sövq etməsi psixologiya elmi tərəfindən geniş təhlil edilir. Necə ola bilər ki, ata-ananın, əcdadlarının yaşadığı, ən gözəl xatirələrinin ünvanı olan, ana adlandırdığın vətənə xəyanət edəsən? Əclaflıq adlanan oyun qaydalarını qəbul edəsən? Psixologiya elminə görə, xəyanət, elmi baxımdan, daha geniş olan satqınlıq anlayışına daxildir. Xəyanətlərin ən böyüyü - dövlətə xəyanətdir.***

### Yırtıcı "üçlüyün" əxlaqsızları...

Bunlar kimlərdir? Məgər müxalifətin dağıdıcı düşərgəsində yırtıcılar üçdür? Bu infeksiyalı düşərgədə sayı-hesabı yoxdu yırtıcıların. Ancaq "Milli Şura"nın G.Hacıbəyli, C.Həsənli və Ə.Kərimlidir ki, özlərini "müqəddəs üçlük" yox, "yırtıcı üçlük" elan etməlidirlər. Ancaq bu reallığı hələ də anlamırlar ki, biri beşinə dəyməz, beşi birinə. Fərqində də deyillər ki, "Milli Şura" çoxdan tarixin arxivinə gömülüb. "Onlar isə. təki qrant almaq iddialarından dönmürlər".

Bu aksiomadır ki, erməni xüsusi xidmət orqanlarına xidmət edən hər kəs, şübhəsiz ki, Azərbaycanın düşmənidir. O zaman ermənilərin dostları ilə dostluq edən "Milli Şura"çılar kimdir? Nə araşdırmaq lazımdır, nə də fikirləşmək. Cavab bəllidir. Vətən daşına dönük çıxan bu satqınlar kadrosunda" toplaşıblar. Belə satqınlar nə qanır Vətən, millət nə qədər böyük bir milli dəyərdir, mənəviyyatdır. Vətən millətin doğulduğu, doyduğu, sığındığı və maddi-mənəvi varlığını davam etdirdiyi yerdir. Vətən millətin evi, millət də vətəndə yaşayan ailədir. Vətən bizi qoruyan anadır. Vətən gözümüzün dünyada ilk gördüyü torpaqdır. Ancaq bu gün Orduxan Teymurxan, Emin Hüseynli, Məhəmməd Mirzəli, Tural Sadıqlı, Həbib Müntəzir, Ə.Kərimli, C.Həsənli, Arif Hacılı, Leyla Yunus və digər quduzları susdurmaq heç də çətin deyil. Onlar özlərini "mühacir" kimi qələmə verərək, havadarlarının xüsusi sifarişini yerinə yetirən enməni qulbeçələridirlər. Amma bu bədbəxtlər, hələ də bilmirlər ki, havadarları onlardan uzunqulaq kimi yaxşı istifadə edirlər. Şərəfsizlik simvolu olan bu quduzlar hürə-hürə qalacaqlar.

### Xəyanətkarlara min lənət

Lənət olsun ermənıyə xidmət edənlərə. Belələrinə cavab verməyib necə susasan? Ay biqeyrətlər, kimsiniz ki, Azərbaycanın siyasi həyatında baş verənlərə qiymət də verəsiniz. Şəxsi, qrup mənafeyi naminə milli və dövlət maraqlarını satmaq, xalqımıza, dövlətimizə qarşı dəfələrlə vandalizm, terror aktları, soyqırımlar törədən üzdəniraq millətin nümayəndələri ilə çiyin-çiyinə durmaq əsl rəzalətdir. Ancaq bunu qana bilməzsiniz. Çünki Azərbaycanın uğurlarını gözü götürməyənlər daim Ə.Kərimlidən və onun yaxın ətrafından istifadə edərək ölkədə təxribat yaratmağa can atıblar. O.Teymurxan, E.Hüseynli, M.Mirzəli, T.Sadıqlı, H.Müntəzir və bu kimi parazitlərin əməlləri iflasa uğrayacaq.

Bu gün bu satqın parazitlər heç vaxt heç nəyə nail ola bilməyiblər və bundan sonra da heç bir şey əldə edə bilməyəcəklər. Çünki onlar hadisələrin məcrasında idarə olunan fiqurlardır. İdarə olunan isə, əsla, idarə edənin məramlarından və niyyətlərindən xəbərdar olmur. "5-ci kolon"u formalaşdırmağa nail olan həmin dairələrin böhtanlarını gerçək kimi qəbul etdirmək mexanizmləri də çox sadədir. Azərbaycanı ölkə və dünya ictimaiyyətinə "dəhşətli obrazda" təqdim etmək üçün satın alınan Vətən xainləri V.İsgəndərli, O.Teymurxan, T.Sadıqlı, xarakterinə uyğun psixologiyasını soyadı ilə doğruldan H.Müntəzir, Q.Məmmədov, Q.Zahid kimi ünsürlər də hər zaman olub. Bu kimi Vətən xainlərinin torpağına, elinə-obasına ermənidən betər qənim kəsilən namərdlərin əsl qazancı isə xalqın nifrətidir. Bax, bu marginallar unudurlar ki, anti-Azərbaycan dairələrin qrant paylayan üfunətli ofislərinin mərmər döşəmələri üstündə gəzib, özgə yalı ilə yallanmaqla heç nəyə nail ola bilməyəcəklər. Belələri bilməlidirlər ki, Vətənin halal çörəyinə kəm baxıb, özgənin (həm də düşmənin) yalı ilə bəslənənləri tarix heç vaxt bağışlamır.

***Rəfiqə HÜSEYNOVA***

# Əli Kərimli özünü xalqdan bu cür təcrid edir

*AXCP sədrinin gizlətdiyi maliyyə qaynaqları, əslində, hər kəsə bəllidir*

***AXCP sədri Əli Kərimlinin bu günə qədər rəhbərlik etdiyi partiyasının maliyyə hesabatını verməməsi arxasında yaranmış suallar bu gün də cavabsız qalmaqdadır. Yalnız "dostları"nın maliyyə dəstəyi ilə siyasi təşkilatını idarə etdiyini deyən Ə.Kərimlinin bu məsələdə ağ yalan danışması isə kimsədə şübhə doğurmur. Cəbhəçi sədrin dəfələrlə bank maxinasiyalarını sübuta yetirən faktları da daxil olmaqla, onun çirkli pullar qazanmasını təsdiqləyən digər dəlillər mövcuddur. Bu barədə KİV-lərdə əsaslı yazılar ictimaiyyətin diqqətinə çatdırılıb.***



### AXCP sədri onların məvaciblərini, əlbəttə ki, havadan vermir

AXCP sədrinin övladının Britaniyada ən bahalı ali təhsil müəssisəsində təhsil alması, gecə barlarında, ulduzlu otellərdə müxtəlif özəl partilər təşkil edib, pulları göyə sovurması, o cümlədən, Ə.Kərimlinin Bakıda və bir neçə rayonda villalarının olması, habelə, özünə məxsus biznes fəaliyyəti də faktlar daxilindədir. Onun arvadının London yolunu su yoluna döndərməsi isə, artıq ənənə şəklini alıb.

Başqa tərəfdən, Ə.Kərimlinin bahalı avtomobilləri, sürücüləri, xüsusi mühafizə xidməti də mövcuddur ki, AXCP sədri onların məvaciblərini, əlbəttə ki, havadan vermir. Həmçinin, Kərimlinin saxladığı troll dəstələri də müvafiq əməkhaqqı müqabilində saxta profillərlə Azərbaycan dövlətinin və xalqının milli maraqlarına qarşı xəyanətkar siyasət yürüdürlər. Bunu sübut edən videomateriallar və fotolar yetərincədir və hazırda həmin fotoları dəyərli oxucularımızın diqqətinə çatdırırıq.

### Erməni diasporasının əsas buyruq qulu

Əsas faktlardan biri də budur ki, AXCP sədri mitinqlərində "mənim xalqım", "uca millət" və s. kimi müraciətlər etməsinə baxmayaraq, həmin tədbirlərindən sonra özünü xalqdan təcrid edir, cangüdənləri vasitəsi ilə, necə deyərlər, aradan çıxır. Bu isə, isbat edir ki, Ə.Kərimlini heç vaxt xalq, dövlət maraqları düşündürməyib və onun əsas məqsədi heç hakimiyyətə iddialı olmaq da deyil. Onun əsas məqsədi, ölkədə "ana müxalifət" adı altında fəaliyyət göstərərək, xaos, anarxiya yaratmaq, sabitliyi pozmaq marağıdır ki, bütün bunları uzun illərdir, iş birliyi qurduğu xarici mərkəzlərdən sifariş olaraq alır. Bu mərkəzləri maliyyələşdirən, donorluq edən isə, əlbəttə ki, Qərb ölkələrində fəaliyyət göstərən erməni diasporasıdır. Yəni Ə.Kərimli dolayısı ilə erməni lobbisinin buyruq qullarının əsas şəxslərindəndir. Onun ətrafındakı insanlar müxtəlif adlarda QHT-lər yaradaraq, Ə.Kərimlinin cibinə axan xəyanət pullarını birbaşa ona ötürürlər.

***Rövşən NURƏDDİNOĞLU***

## Axtarışda olan şəxsin evində narkotik vasitə aşkarlanıb

Binəqədi Rayon Polis İdarəsinin 40-cı polis bölməsinin əməkdaşları Cinayət Məcəlləsinin 234-cü maddəsi (Qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldəetmə, saxlama, daşıma, göndərmə və ya satma) ilə axtarışda olan İ.Məmmədyarova məxsus evdə əməliyyat-axtarış tədbirləri keçiriblər. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, axtarış nəticəsində evdən narkotik vasitə olan marixuana və metadon, habelə həyətyanı sahədən kultivasiya yolu ilə yetişdirilmiş 291 ədəd çətənə kolu aşkarlanaraq götürülüb. Faktla bağlı əməliyyat-axtarış tədbirləri davam etdirilir.

## İspaniyada qəzaya uğrayan avtomobildən bir milyon avro tapılıb




İspaniya Mülki Qvardiyası Qranada əyalətində qəzaya uğrayan avtomobildə bir milyon avro aşkarlayıb. AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, yol-nəqliyyat hadisəsi Uetor-de-Santilyan bələdiyyəsinin ərazisində qeydə alınıb. Mülki Qvardiyanın əməkdaşları sürücünü və iki sərnişini əzilmiş avtomobildən çıxarıb. Onların hamısı Litva vətəndaşlarıdır. Sürücünün narkotik vasitə və spirtli içkinin təsiri altında olduğu müəyyən edilib. Həmçinin qvardiyanın komendantlığına aparılan minivendə 1 milyon avro aşkarlanıb.

Əgər vəsaitin qanunsuz olduğu sübut edilsə, litvalılar pulların yuyulmasında ittiham oluna bilərlər. Eyni zamanda, böyük məbləğdə pulu daşımaq üçün ilkin sorğu göndərmədiklərinə görə onları cərimə gözləyir. Belə ki, İspaniya qanunvericiliyinə əsasən, ölkə daxilində yalnız 100 min avroya qədər pul aparmaq olar. Xaricə isə deklarasiyasız maksimum 10 min avro məbləğində vəsait çıxarmağa icazə verilir.

## Ukrayna Rusiyaya qarşı sanksiyaları genişləndirir



Ukrayna Nazirlər Kabineti ölkəyə idxalı qadağan olunan Rusiya məhsullarının siyahısını genişləndirib. TASS informasiya agentliyi xəbər verir ki, bu barədə Ukraynanın Baş naziri Vladimir Qroysman Nazirlər Kabinetinin iclasında bildirib. Onun sözlərinə görə, qadağalar yalnız Ukraynada istehsal olunan və ya alternativ çatdırılması mümkün olan məhsullara şamil ediləcək. Ukraynanın birinci vitse-prezidenti Stepan Kubiv qadağalara gübrə, kənd təsərrüfatı, nəqliyyat, sement və faner kimi məhsulların məruz qaldığını deyib. Kubiv bu addımın "təcavüzkar ölkəyə" kapital axınının qarşısının alınması, həmçinin mövcud iş yerlərinin qorunması və yenilərinin açılması üçün atıldığını deyib.

# Ölmək (və ya evtanaziya) hüquq və insan haqları

***Bir çox illərdir ki, evtanaziya mövzusu insanlarda birmənalı olmayan reaksiyalara səbəb olur. Aytən Mustafayeva göstərir ki, hazırkı XXI əsr də istisna deyil. Bu gün evtanaziya problemi daha geniş ictimai əks-səda doğurmaqdadır. Bu, onunla əlaqədardır ki, ağır xəstələrin həyat qabiliyyətini saxlamaq üçün yeni-yeni tibbi texnologiyalar yaranır. Bu problemin aktuallığının iki aspekti var: birincisi, evtanaziya bizim üçün ən dəyərli və vacib olan həyatımızla bağlıdır; ikincisi, bu problem az öyrənilmişdir, o, alimlərin - hüquqşünasların, filosofların, həkimlərin və s. əsərlərində tam işıqlandırılmamışdır. Problemin aktuallığını tarixi faktlar da sübut edir. Rafael Koxen-Almaqor yazır: "Yəqin ki, evtanaziya probleminin yetərincə öyrənilməməsi səbəbindən, bioetika kimi bir elm, həmçinin, əksər demokratik dövlətlərin cinayət məcəllərində "sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə cinayətlər" adlı fəsillər yaranıb."***

İngilis filosofu Devid Stadler asan və ağrısız ölümü ifadə etmək üçün evtanaziya, yəni əziyyətsiz və iztirabsız, yaxşı, sakit və asan ölüm terminini işlətmişdir. "Evtanaziya" termininin mənşəyi yunan sözləri ev "yaxşı" və thanatos - "ölüm"dür, sağalmaz xəstənin və iztirab çəkən insanın müalicə oluna bilməyən ağrılarının və əziyyətlərinin dayandırılması məqsədilə nisbətən tez və ağrısız yolla onun ölümünə səbəb olan şüurlu hərəkətlər mənasını verir. Evtanaziya hərfi tərcümədə "xoşbəxt ölüm" kimi anlaşıla da, termin təkcə öz-özlüyündə "yaxşı" ölümü deyil, həmçinin, onun gerçəkləşməsi mənasını verməyə başlamışdır.

Yuxarıda qeyd etdiyimiz kimi, evtanaziya problemi insan fəaliyyətinin müxtəlif sahələrində tədqiqat obyekti olmuşdur. Bu sahələrin hər biri də ona öz tərifini vermişdir.

Fəlsəfədə evtanaziya - ağrısız, iztirablardan azad bir yoxluğa doğru qayıdılmaz sonluqdur. S.Bıkova, B.Yudin və L.Yasnayanın göstərdikləri kimi, təbabətdə, bu, sağalmaz xəstələrin iztirablarına son qoymaq məqsədilə onların öz xahişləri əsasında öldürülməsidir. Hüquqşünaslıqda bu termin iztirabların dayandırılması məqsədilə ümidsiz xəstələrin, nisbətən tez və ağrısız yolla ölümünə gətirən şüurlu hərəkətləri bildirir.

A.Mustafayeva yazır: "Yuxarıda göstərilmiş təriflərdən heç birini mükəmməl hesab etmək, evtanaziyanın bütün əlamətlərini və bütün mümkün şəraitləri əhatə edən tərif saymaq olmaz. Birinci tərif evtanaziyanı digər şəxsin iştirakı olmadan törədilən intihardan fərqləndirməyə imkan vermir. İkinci tərif xəstənin öz xahişini söyləmək iqtidarında olmadığı (komatoz vəziyyətində) halları nəzərə almır. Üçüncü tərif ölümə gətirən fəaliyyəti göstərir və hadisələrin təbii gedişinə və pasiyentin ölməsinə mane olmamaq məqsədi daşıyan həkimin şüurlu hərəkətsizliyi hallarını əhatə etmir. Göstərilən təriflərin heç biri evtanaziyanı həyata keçirən subyektin mövcudluğunu nəzərdə tutmur."

Passiv evtanaziya ("təxirə salınmış şpris üsulu") həyatın uzadılmasına istiqamətlənən tibbi yardım göstərilməsinin dayandırılmasında ifadə olunur ki, bu da, öz növbəsində, təbii ölümü sürətləndirir. Aktiv evtanaziya ("doldurulmuş şpris üsulu") altında xəstəyə hansısa dərman və ya başqa vasitələrin vurulması, yaxud tez və ağrısız ölümə gətirən digər hərəkətlər (ölüm inyeksiyası) başa düşülür.

Xəstənin birmənalı xahişi və ya onun qabaqcadan razılığı əsasında (bərpaolunmaz koma halı üçün öz iradəsini öncədən və hüquqi cəhətdən dürüst formada ifadə etmək ABŞ və digər Qərb ölkələrində geniş yayılmışdır) həyata keçirilən evtanaziya könüllü adlanır.

Könüllü olmayan evtanaziya xəstənin birbaşa razılığı olmadan həyata keçirilir.

E.Dürkgeymin qeyd etdiyi kimi, evtanaziyanın bu formalarını cəmləşdirərək, biz evtanaziyanın dörd üsulunu (halını) əldə edirik:

- könüllü və aktiv,
- könüllü və passiv,
- qeyri-könüllü və aktiv,
- qeyri-könüllü və passiv.

Birinci və dördüncü şəraitlərlə bağlı mütəxəssislər həm "lehinə", həm də "əleyhinə" söyləyirlər, üçüncü ilə əlaqədar fikirlər çox vaxt mənfi olur. Evtanaziyanın xeyrinə fikir bildirənlər isə, bir qayda olaraq, ikinci şəraiti nəzərdə tuturlar. Bu halda, evtanaziya xəstə tərəfindən könüllü və həkim tərəfindən isə passiv olur.

Hansı hallarda evtanaziyadan danışmaq olar?

Ölümə səbəb olan preparat tətbiq ediləndə, həmçinin, xəstəni onun həyatı üçün zəruri olanlardan (məsələn, qida), yaxud onun üçün əlverişli olanlardan (həyatın uzadılması şansı verən reanimasiya və ya müalicə) məhrum edəndə evtanaziya yaranır.

Evtanaziya aşağıdakı hallarda olmur:

-xəstəyə əlverişli təsir göstərə biləcək müalicə (məsələn, pasiyentin vəziyyətini yüngülləşdirməyərək onun həyatını əzablarla uzadan müalicə) dayandırılanda;

-serebral ölümün labüd olduğu vəziyyətlərdə reanimasiyanın dayandırılması hallarında (heç bir müalicə iztirabları yüngülləşdirmir, sağalma şansı vermir, əksinə, canverməni uzadır, bundan başqa, ailəyə əziyyətlər və dövlətə külli miqdarda məsrəflər gətirir);

- yeni doğulan körpə anadangəlmə eybəcərliklərə malikdirsə və ya öz əcəli ilə ölümə (yaxşılaşmağa ümid etmədən yalnız süni yolla həyatı davam etdirmək mümkün olanda) aparan ağır patologiyadırsa, körpəni reanimasiya etməyəndə;

- hər hansı terapiya həyatı yalnız qısa müddətə və dözülməz şəraitdə uzatmaq imkan verərkən, sağalmaz xəstəni az vaxt ərzində, öz əcəli ilə ölümünə aparan "sakitcə ölmək imkanı" yaradılanda.

A.Mustafayeva yazır: "Evtanaziya ölüm problemlərinin (həyatının dayandırılması) tibbi həllinin yeni üsulu kimi iki əsas amilin təsiri altında müasir səhiyyə praktikasına daxildir:

- Birincisi, təbabətin tərəqqisi, məsələn, xəstənin ölümünün qarşısını almağa imkan verən, başqa sözlə, ölməkdə olanla idarəetmə rejimində işləyən reanimatologiyanın inkişafının təsiri altında.

- İkincisi, mərkəzində "insan hüquqları" ideyası duran çağdaş sivilzasiyanın dəyər və əxlaqi prioritetlərinin dəyişməsi. Təəccüblü deyil ki, 41-50 və 51-65 yaşlı Rusiya həkimlərinin, müvafiq olaraq 51.5% və 44,8%-i 1991-1992-ci illərdə keçirilən sosioloji sorğuda "Hesab edirsinizmi ki, evtanaziyaya yol verilə bilər?" sualına "bəli" və "xeyr" cavabları ilə yanaşı, "bu barədə heç vaxt fikirləşməmişəm" cavabını vermişdir. 21-30 yaşlı həkimlərin 49%-i təsdiq cavabı vermişdir. Tədqiqatın müəllifləri, bir tərəfdən, həyat və ölüm arasındakı çıxılmaz durumlarla üzləşən, digər tərəfdən isə, ümumsivilizasiya sosial proseslərinin iştirakçıları olan tibb işçilərinin peşəkar təfəkkür dəyərlərinin dəyişilməsi kimi haqlı fikrə gəlirlər.

Bununla əlaqədar olaraq insanın sağlamlıq, ləyaqətli həyat və ləyaqətli ölüm kimi şəxsiyyət hüquqlarının təmin edilməsi məsələləri, xüsusilə, aktualdır. Bu halda, tez-tez belə bir şübhə yaranır - nə yaxşıdır: tez, lakin ağılsız ölüm, yoxsa əzablı və uzunmüddətli canvermə? Bu məsələ ağrılardan əzab çəkən ümidsiz xəstələrlə bağlı olanda, onu həll etmək daha çox çətin olur. Onlar üçün nə daha üstündür: dözülməz iztirablar çəkərək yaşamaqda davam etməkmi, yoxsa yaşamağa və əzab çəkməyə son qoymaqmı? Əgər həkim xəstənin iztirablarını artıq yüngülləşdirə bilmirsə, xəstə özü isə həkimdən onun əzablarını dayandıraraq, həyatına son qoymağı təkidlə xahiş edirsə, o zaman həkim necə hərəkət etməlidir? Təbiidir ki, bu məsələ təkcə əxlaqi-etik baxımdan həll edilməməli, həm də hüquqi qiymət almalıdır, çünki burada sui-istifadə və hətta cinayətkarlıq halları da istisna deyil."

Məlumdur ki, müasir Qərb etikası evtanaziyanın əxlaqi qiymətləndirilməsinin çoxlu variantlarını təklif edir. Müəlliflərin böyük əksəriyyəti passiv evtanaziya üsullarını bu və ya digər dərəcədə dəstəkləyir və hər hansı aktiv evtanaziya imkanlarını rədd edir. Bununla belə, bəziləri bunların tam əksini söyləyirlər. Onlardan ən məşhuru Rafael Koxen-Almaqordur. O, Amerika Tibb Assosiasiyasının (ATA) 4 dekabr 1973-cü il tarixli qətnaməsini kəskin tənqid edir. Sənəddə deyilir: "Bir insan varlığı yaşamının digəri tərəfindən bilərəkdən dayandırılması -şəfqətli qətl - həm tibb peşəsinin özünün təyinatına, həm də Amerika Tibb Assosiasiyasının siyasətinə ziddir."

R.Koxen-Almaqor hesab edir ki, əgər xəstə şüurlu olaraq onun sayılı günlərinin qaldığını başa düşürsə, əzablı ağrılara daha dözmür və həkimdən onun ölümünü tezləşdirməyi xahiş edir. Həkim isə bununla, ancaq müalicənin dayandırılması hesabına (passiv evtanaziya) razılaşır. Yoxsa xəstənin iztirabları, daha qısa müddətli olsa da, güclənəcək. Belə bir şəraitdə, R.Koxen-Almaqorun fikrincə, ölümcül iynə (aktiv evtanaziya) daha humanistdir, çünki xəstənin əziyyətlərinə dərhal son qoyur.

A.Mustafayevanın fikrincə, R.Koxen-Almaqorun konsepsiyasının məntiqi və əsaslandırılmış kimi görünməsinə baxmayaraq, həkim və hüquqşünasların əksəriyyəti onunla razı deyillər. Bu, ilk növbədə, ölümün səbəbləri ilə bağlı hüquqi baxımdan mühüm motivlərə görədir. Axı həkim onkoloji xəstəyə ölüm gətirən iynə vurarkən, öz fəaliyyəti ilə xərçəng xəstəliyi fonunda zəhərlənmədən ölümə səbəb olur. Əgər o, sadəcə, müalicəni dayandırarsa, ölümün səbəbi birbaşa xərçəng olacaq.

Məhz şiddətli ağrılar, adətən, xəstənin ölümü tezləşdirmək xahişinin başlıca səbəbi olur. Həkimlər ötən müharibələrdə amputasiyaya razılıq verməkdənsə, ölümü üstün tutan, fiziki və ruhi iztirablarına son qoymağı tələb edən ağır yaralı zabit və əsgərlərdən bu cür sözləri çox eşitmişlər. Zaman keçdikcə, ağrılar geri çəkilmiş, insanlar tədricən öz çatışmazlıqlarına vərdiş etmiş, həyat onlara artıq elə də dözülmoz görünməmişdir. Onlar buna uyğunlaşmağa başlamış, imkan daxilində işləmiş, şəxsi həyatlarını qurmuş, evlənmiş - bir sözlə, yaşamağa və həyatdan zövq almağa başlamışlar. Stefan Jon Qrabilin fikrincə, bu cür əlillərin böyük əksəriyyəti özlərinin nə vaxtsa tibbi yardımı kəsmək və ölümü tezləşdirməklə bağlı xahişlərindən təəssüfləniblər.

**VAHİD ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# “Nar” “Facebook”səhifəsinə daxil olmuş müraciətləri 100% cavablandırıb




“Nar” sosial media vasitəsilə yüksəkkeyfiyyətli, operativ və tam müştəri xidmətləri göstərməkdə davam edir. Belə ki, mobil operator sosial şəbəkələr vasitəsilə daxil olan müraciətlərin hamısına cavab verir. 2019-cu ilin birinci rübü ərzində sosial şəbəkələrdən daxil olan müraciətlərin 25 %-dən çoxu 1 dəqiqə, 53%-ə qədəri isə 10 dəqiqə ərzində cavablandırılıb. Ümumilikdə, “Nar”-ın bütün sosial şəbəkələrindən daxil olan sorğularına ortalama 8 dəqiqə ərzində cavab verilib. Mobil operatorun üstün müştəri xidmətini nəzərə alan “Socialbakers” beynəlxalq tədqiqatı “Nar”-ın “Facebook” səhifəsini “Socially Devoted” sertifikatına layiq görüb. Belə ki, təşkilatının 2019-cu ilin birinci rübü ərzində apardığı monitorinqin nəticələrinə görə, “Nar” “Facebook” şəbəkəsinə daxil olmuş müraciətləri 100% cavablandırıb.

Qeyd edək ki, “Nar” abunəçiləri “Facebook”, “Twitter” və “Instagram”, eyni zamanda elektron poçt və onlayn-çat vasitəsilə öz suallarını ünvanlaya və qısa müddət ərzində mobil operatorun sosial media komandası tərəfindən cavab ala bilərlər. Abunəçilərə sosial şəbəkələr üzərindən əsasən balans haqqında məlumat, şəbəkə/internet çətinliklərinin aradan qaldırılması, “Nar”-ın xidmətləri, tarifləri, internet paketləri, nömrələr üzərində əməliyyat, gələn mesajlar, texniki problemlərin həlli, endirim kampaniyaları, keçirilən müsabiqə və tədbirlərdə iştirak və s. haqqında ətraflı məlumat əldə edə bilərlər. Qeyd edək ki, “Nar” sosial şəbəkələr üzərindən tam müştəri xidməti göstərən ilk telekommunikasiya şirkətidir. Mobil operatorun müştəri xidmətləri haqqında daha ətraflı məlumatı nar.az internet səhifəsindən əldə etmək olar.

# “Bakcell”in PULSUZ 4G İnternet kampaniyası oktyabr ayına kimi davam edəcək

Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti PULSUZ 1 GB kampaniyasını oktyabr ayına qədər uzadıb. Bu ilin mart ayında elan edilmiş kampaniyanın şərtlərinə əsasən, “Mənim Bakcellim” mobil tətbiqetməsini yükləyib öz nömrəsi ilə qeydiyyatdan keçən hər bir Bakcell abunəçisi 1 Gb PULSUZ İnternet trafiki əldə edir. Mobil tətbiqetmə “Google Play” və yaxud “Appstore”dan yüklənilib pulsuz istifadə oluna bilər. Qeyd edək ki, hədiyyə yalnız “Mənim Bakcellim”də ilk dəfə qeydiyyatdan keçən abunəçilərə təqdim olunacaq. Kampaniyada iştirak edib PULSUZ internetdən yararlanmaq üçün abunəçinin mobil cihazı 4G şəbəkəsini dəstəkləməli və 4G SİM-kartı ilə təmin olunmalıdır.




Kampaniyanın müddətinin uzadılması Android və iOS platformalarında istifadə üçün nəzərdə tutulmuş “Mənim Bakcellim” rəqəmsal internet portalı və tətbiqetməsinin uğurları ilə bağlıdır. Belə ki, 2018-ci ilin fevral ayında istifadəyə verilmiş “Mənim Bakcellim” tətbiqetməsini cəmi bir il ərzində 320 mindən çox Bakcell abunəçisi yükləyib və bu rəqəmsal kanal üzərindən uğurla həyata keçirilmiş aylıq əməliyyatların sayı 30 minə çatıb. Tətbiqetmə abunəçilər arasında böyük rəğbət qazanıb, onun “Google Play” və “Appstore”da reytinqləri isə çox yüksəkdir.

“Mənim Bakcellim” abunəçilərə məlumat mərkəzinə zəng etmədən və müştəri xidməti mərkəzinə getmədən mobil nömrə ilə istənilən əməliyyatı həyata keçirmək imkanı verir. “Mənim Bakcellim” istifadəçilərə maksimum şəffaflıq və rahatlıq, zəng olunmuş nömrələrin siyahısı, zənglərin vaxtı və müddəti və sərf olunmuş məbləğlər daxil olmaqla nömrənin istifadə tarixçəsinə aid bütün məlumatlara tam nəzarət imkanı və hətta onlayn çat kimi üstünlükləri təqdim edir. Qeyd edək ki həftənin 7 günü, günün 24 saatı ərzində fəaliyyət göstərən və 20 saniyəlik ilk cavab vaxtını təmin edən onlayn çat funksiyası üzərindən hər ay 7000 nəfərdən çox müştəri sorğusu emal olunur. “Mənim Bakcellim” mobil tətbiqetməsini Android və iOS sistemləri ilə çalışan cihazlar üçün aşağıdakı linklərdən yükləmək olar: http://bit.ly/MenimBakcellim_android http://bit.ly/MenimBakcellim_IOS

Bakcell özünün rəqəmsal müştəri xidməti kanalını daha da inkişaf etdirəcək və müştəriləri daha üstün istifadə təcrübəsi və daha geniş təhlükəsizlik imkanları ilə təmin etmək məqsədilə yaxın gələcəkdə “Mənim Bakcellim” applikasiyasına yeni maraqlı və faydalı funksiyalar əlavə edəcək.



# Paytaxtımız bədii gimnastika üzrə Avropa çempionatına ev sahibliyi edir

## *Bu gün paytaxt Bakıda bədii gimnastika üzrə Avropa çempionatına start verildi*





Qafqazın qüdrətli ölkəsi, dünyada söz sahibi olan Azərbaycan hər il onlarla beynəlxalq konfranslara, sərgilərə, festivallara, eləcə də, irimiqyaslı tədbirlərə ev sahibliyi edir. Bakıda keçirilən “Avroviziya” mahnı yarışması, IV İslam Həmrəyliyi Oyunları, NATO Parlament Assambleyasının seminarı, ATƏT Parlament Assambleyasının 23-cü illik Sessiyası, Bakı Beynəlxalq Humanitar forumları, Gənclər Siyasəti üzrə I Qlobal Forumu, Ümumdünya Mədəniyyətlərarası Dialoq forumları, BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumu və s. Azərbaycanın güclü, qüdrətli, nüfuzlu - dünya güclərinin hesablaşdığı bir dövlət olduğunu göstərir. Bu tədbirlər siyasi və iqtisadi sabitliyə, maliyyə imkanlarına və yüksək səviyyəli təhlükəsizliyə malik olan ölkəmizdə keçirilir. Azərbaycan Prezidenti İlham Əliyevin davamlı və məqsədyönlü fəaliyyətinin nəticəsidir ki, bütün sahələrdə olduğu kimi, idman sahəsində də həyata keçirilən tədbirlər ölkəmizin idman ölkəsi kimi tanınmasına səbəb olub. Bu nailiyyət idman və bədən tərbiyəsinə göstərilən diqqət və qayğıdır. Ötən 16 ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı bir sıra sərəncam və fərmanları da respublikamızda idman sahəsində uğurlara yol açıb. Azərbaycanın iştirak etdiyi beynəlxalq idman yarışlarında, Olimpiya Oyunlarında qazandığı nailiyyətlər dövlətin idmana və gənclərə qayğısından irəli gəlir. Keçən zamanda, əldə olunan nailiyyətlərə nəzər salsaq, görərik ki, Azərbaycan idmançıları çoxlu sayda qızıl, gümüş və bürünc medallara sahib olublar. Son illər beynəlxalq yarışların keçirilməsi üçün Bakının namizədliyinin irəli sürülməsi dünya idman və Olimpiya aləminin Azərbaycana olan marağının daha da artdığının şahidi oluruq. Azərbaycan həm idman üzrə uğurları ilə, həm də dünya və Avropa səviyyəli çempionat və tədbirləri, o cümlədən, ölkəmizdə nüfuzlu beynəlxalq yarışları təşkil etməklə dünyanın idman mərkəzlərindən birinə çevrilib.

Azərbaycanda keçirilən Avropa və Dünya çempionatları silsilə xarakteri daşıyır. Müxtəlif beynəlxalq turnirlərin - bədii gimnastika, qılıncoynatma, taekvondo, güləş, boks, karate, avarçəkmə, FİFA U-17 Qadınlararası Dünya çempionatı, “Baku World Challenge” avtomobil yarışı və Olimpiya növlərinə daxil olan digər beynəlxalq idman tədbiri, o cümlədən, Dünya və Avropa çempionatlarının təşkili ölkəmizə böyük imic qazandırmışdır. Ölkəmiz tarixdə ilk dəfə təşkil olunan “Bakı-2015” Avropa Oyunlarını layiqincə təşkil etməklə, tək özünün deyil, qitənin idman tarixinə möhürünü vurdu. Avropa Oyunlarına ev sahibliyi etmək məsuliyyətinin Bakıya həvalə edilməsinə böyük etimad, təbii ki, Azərbaycana olan inamdan doğmuşdur. Dünyanın 50 ölkəsinin 6 min idmançısının iştirak etdiyi I Avropa Oyunlarında Azərbaycan təmsilçilərinin 21 qızıl medal qazanması və 21 dəfə Azərbaycan bayrağının yüksəldilməsi idmana olan qayğının məntiqi idi.

Paytaxtımız Bakı şəhərinin 2025-ci ildə “Ekspo” Ümumdünya Sərgisinə ev sahibliyi etmək üçün namizədliyinin irəli sürülməsi də elə ölkəmizin beynəlxalq tədbirlərə ev sahibliyi etməsindən, sülhün, əmin-amanlığın və sabitliyin hökm sürdüyü bir məkan olmasından qaynaqlanır. Universal sərgi, dialoq və qarşılıqlı fəaliyyət üçün yeni bir güclü platforma kimi səciyyələndirilir. İdeyalar məkanı kimi tanınan müstəqil dövlətimiz, artıq özünü təsdiqləyib. Mədəniyyətlərarası dialoqun inkişafı sahəsində həyata keçirdiyi layihələr onun ölkənin avanqard qabiliyyətini bir daha nümayiş etdirir.

Bu gün paytaxtımızda daha bir yarış start götürəcək. Mayın 16-da Milli Gimnastika Arenasında 4-cü dəfə (2007-ci, 2009-cu, 2014-cü, 2019-cu il) paytaxtımızda təşkil olunan bədii gimnastika üzrə Avropa çempionatına start veriləcək. Azərbaycanda son illər keçirilən beynəlxalq tədbirlər ölkəmiz haqqında formalaşan təəssüratları dəyişir, respublikamızın imicinə müsbət təsir göstərir. Bu gün Azərbaycan, sözün əsl mənasında, sabitlik və əmin-amanlıq məkanıdır. Respublikamızda hökm sürən və ardıcıl səciyyə daşıyan sabitliyin əsasında duran başlıca faktor isə, hakimiyyətin həyata keçirdiyi siyasi kursun ümummilli maraq və mənafeyə tam cavab verməsidir. Bütün bunlar isə, Azərbaycanı yüksək sürətlə inkişaf edən ölkəyə çevirməklə yanaşı, mövcud ictimai-siyasi sabitliyin əsaslarının daha da möhkəmlənməsini şərtləndirən əhəmiyyətli faktor qismində çıxış edir.

***Zümrüd BAYRAMOVA***

*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600